

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET
№ 45 (7300) / Cümə axşamı, 7 mart 2019-cu il


# Prezident İlham Əliyev zəlzələ bölgəsində sakinləri dinlədi, tapşırıq və tövsiyələr verdi



⇨ Bax: səh. 2



Prezident İlham Əliyev:

## Zəngin mədəni-mənəvi irsimizin, ana dilimizin və adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanmasında Azərbaycan qadınlarının müstəsna xidməti var

⇨ Bax: səh. 4

⇧ Bax: səh. 4

## Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti Azərbaycan qadınlarının hansı səviyyəyə yüksəldiyini göstərir - Komitə sədri



⇧ Bax: səh. 8



Əli Əhmədov:

## Ötən il Azərbaycan iqtisadiyyatı 1,4 faiz artıb

⇧ Bax: səh. 5

## SOCAR prezidenti Rövnəq Abdullayevin 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə neftçi qadınlara təbriki



⇧ Bax: səh. 4



## Azərbaycan-Türkiyə münasibətləri dünya üçün çox gözəl nümunədir

⇧ Bax: səh. 7



## Qadına, anaya münasibətin ən unikal nümunəsi məhz Azərbaycandır

⇧ Bax: səh. 13

## Leyla Yunusun növbəti xəyanəti



⇧ Bax: səh. 10

## Daşıyıcı qaz kəmərləri yenidən qurulur



⇧ Bax: səh. 9

Salome Zurabişvili:

## Prezident kimi regionda ilk səfərimi dost Azərbaycana etdim




9 — Paolo Qrimoldini: TAP təkcə iqtisadi deyil, həm də siyasi əlaqələrin inkişafını təmin edəcək

11 — Mətbuat Şurası Ədliyyə Nazirliyi ilə birgə layihəyə start verdi

16 — Dünyanın ən böyük aeroportu nə vaxt istifadəyə veriləcək?

# Prezident İlham Əliyev zəlzələ bölgəsində sakinləri dinlədi, tapşırıq və tövsiyələr verdi

**Fevralın 5-də və 6-da baş vermiş zəlzələ Şamaxı, İsmayıllı və Ağsu rayonlarında bir sıra fəsadlar törətmişdi. Dövlətimizin başçısının sərəncam və tapşırıqlarına əsasən təbii fəlakətin törətdiyi fəsadlar aradan qaldırılır.**





"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Sərəncamın icrası ilə əlaqədar görülən işlərlə yerində tanış olmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Ağsu rayonuna səfərə gəlib.

Qeyd edək ki, fevralın 5-də və 6-da episentri Ağsu və İsmayıllı rayonlarının ərazisində olan zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında fərdi evlər qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərinə ziyan dəymişdi. Təbii fəlakətdən dərhal sonra Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilib, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilib.

Hadisənin səhəri günü dövlətimizin başçısı zəlzələ zonasına gələrək sakinlərlə görüşmüş, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılacağını bildirmişdi. Prezident İlham Əliyev elə buradaca əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini vermişdi. Elə həmin gün dövlətimizin başçısı baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında evlərə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan ilkin olaraq iki milyon manat ayrılması haqqında Sərəncam imzalamışdı. Bundan sonra hər 3 rayonda dərhal tikinti və təmir işlərinə başlanmışdı.

Dövlətimizin başçısı Ağsuda zəlzələ nəticəsində zərər çəkən evlərin yerində yenidən tikilməkdə olan evlərlə tanış oldu. Prezident İlham Əliyev Xasayev küçəsinin sakini Gülarə Hökmrəvanın ailəsi üçün tikilməkdə olan yeni evə baxdı, ev sahibinin oğlu Tahir Hökmrəvanla söhbət etdi.

Burada fövqəladə hallar naziri Kəmaləddin Heydərov dövlətimizin başçısına zəlzələ zonasında görülən işlər barədə məlumat verdi. Bildirildi ki, yaradılmış komissiyalar tərəfindən əhalinin müraciətlərinə əsasən indiyədək Şamaxıda 4893, Ağsuda 1461, İsmayıllıda 919 evə baxış keçirilib. Müəyyən olunub ki, Şamaxıda 244, Ağsuda 150, İsmayıllıda 97 ev kəskin qəzalıdır. Şamaxıda 1111, Ağsuda 265, İsmayıllıda 262 evin bərpa-gücləndirməsinə ehtiyac var. Şamaxıda 1800, Ağsuda 1022, İsmayıllıda 354 evin isə təmirə ehtiyacı var. Bütövlükdə bu rayonlarda 88 ev sökülməyə hazırlanıb, 65 ev sökülüb və sökülməyə başlanıb, həmçinin 38 evin tikintisi aparılır.

Prezident İlham Əliyev tikinti-bərpa işlərinin sürətlə və keyfiyyətlə davam etdirilməsi ilə bağlı tapşırıqlarını verdi.



Sonra dövlətimizin başçısı Firdovsi küçəsində Həcər Zamanovanın ailəsi üçün inşa edilən yeni evdə görülən işlərlə tanış oldu. Məlumat verildi ki, dağılmış evin yerində tikilən yeni ev 3 otaqdan ibarət olacaq. Burada normal yaşayış üçün hərtərəfli şərait yaradılacaq.

Prezident İlham Əliyev Ağsu şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi.

Daha sonra Prezident İlham Əliyev rayon sakinləri ilə görüşdü, onlarla söhbət etdi. Dövlətimizin başçısı Ağsu sakinlərinin ərizələrini qəbul etdi. Görüşdə zəlzələnin nəticələrinin aradan qaldırılması ilə bağlı görülən işlər barədə danışıldı, dövlətimizin başçısı sakinləri narahat edən məsələləri dinlədi. Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.







# Azərbaycan-Türkiyə tərəfdaşlığı bu gün yüksək səviyyədədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, dövlətimizin başçısı Türkiyə Böyük Millət Məclisinin sədri seçilməsi münasibətilə Mustafa Şentopu təbrik etdi və onun bu statusda ilk səfərini Azərbaycana etməsinin məmnunluq doğurduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan və Türkiyə arasında ilk yüksək səviyyəli səfərlərin qarşılıqlı şəkildə həyata keçirilməsi adət-ənənə xarakteri daşıyır və bu, iki ölkənin qardaşlığının və dostluğunun bariz nümunəsidir. Dövlətimizin başçısı bu baxımdan keçən il Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən paradda Azərbaycan və Türkiyə hərbçilərinin çiyin-çiyinə birgə yürüşünü xatırlatdı. Azərbaycan ilə Türkiyə arasında tərəfdaşlığın bu gün yüksək səviyyədə olduğunu və uğurla inkişaf etdiyini deyən Prezident İlham Əliyev ölkələrimizin üçtərəfli və dördtərəfli regional formatlarda da əməkdaşlığını vurğuladı. Dövlətimizin başçısı Azərbaycan və Türkiyənin birgə səylərlə həyata keçirdiyi önəmli regional təşəbbüsləri, o cümlədən artıq istismara verilmiş TANAP, "STAR" neft emalı zavodu kimi irimiqyaslı layihələri qeyd etdi. Prezident İlham Əliyev, həmçinin Azərbaycan və Türkiyənin bütün məsələlərdə bir-birini dəstəklədiyini, beynəlxalq təşkilatlarda, o cümlədən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində sıx əməkdaşlıq etdiyini nəzərə çatdırdı.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop bu vəzifəyə seçilməsindən sonra ilk səfərini Azərbaycana etməsindən şərəf duyduğunu bildirdi və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın iki ölkənin olmadığını deyərək əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. O da öz növbəsində, TANAP, TAP və "STAR" neft emalı zavodu kimi irimiqyaslı layihələrin ölkələrimizi daha da yaxınlaşdırdığını vurğuladı. Mustafa Şentop Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin daim Azərbaycanın yanında olduğunu, beynəlxalq hüququ və ədaləti dəstəklədiyini dedi. O, bu il Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə toplantısına ev sahibliyi edəcəyini bildirərək ölkələrimizin Türk Şurası, TürkPA, TÜRKSOY, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və digər təsisatlarda uğurla əməkdaşlıq etdiyini vurğuladı.

Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

## Azərbaycan qadınları təltif edilib



**Prezident İlham Əliyev Azərbaycan qadınlarına fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.**

**Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasında təhsil və mədəniyyət sahələrində səmərəli fəaliyyətlərinə görə, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Namazova Sevda Nadir qızı, Rüstəmova Məlahət Oruc qızı, Salmanova Larisa Parfenevnaya "Əməkdar müəllim", Mirzəyeva Xatirə Əbdülrəhim qızına "Əməkdar həkim", Ələkbərova Nüşabə Nazir qızına Əməkdar mədəniyyət işçisi" fəxri adları verilsin.**

**Prezident İlham Əliyev Azərbaycan qadınlarının təltif edilməsi haqqında da Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətlərinə görə, 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Ömərova Mömünət Məhəmməd qızı 3-cü dərəcəli "Əmək" ordeni ilə və bir qrup qadın "Tərəqqi" medalı ilə təltif ediliblər.**

## Ermənistanın ziddiyyətli rəsmi açıqlamaları qəbuledilməz və danışıqlar prosesinə əngəl yaradır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**



"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Toivo Klaar Avropa İttifaqının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə müsbət töhfə verməkdə çox maraqlı olduğunu ifadə etdi.

Prezident İlham Əliyev Avropa İttifaqı Komissiyasının rəhbərliyi və bir sıra komissarlarının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq əsasında həll edilməsi, mövcud status-kvonun qeyri-dayanıqlı olması, danışıqların mövcud format əsasında davam etdirilməsi və danışıqlara qeyd-şərt qoyulmasının qəbuledilməzliyi barədə ictimai açıqlamalarının məmnunluq doğurduğunu və Azərbaycanın bunu dəstəklədiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir və danışıqların formatı dəyişdirilə bilməz. Azərbaycanın münaqişənin tezliklə ədalətli həllində ən maraqlı tərəf olduğunu deyən Prezident İlham Əliyev işğal olunmuş ərazilərin azad edilməsinin danışıqlar prosesinin həmişə vacib komponenti olduğunu vurğuladı. Dövlətimizin başçısı Ermənistan tərəfindən verilən ziddiyyətli rəsmi açıqlamaların qəbuledilməz olduğunu və danışıqlar prosesinə əngəl yaratdığını qeyd edərək beynəlxalq ictimaiyyətin bunu ciddi şəkildə nəzərə almasının və Ermənistana ünvanlı bəyanatların çatdırılmasının vacibliyini qeyd etdi.

Görüşdə, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişafı və ölkəmizin Şərq Tərəfdaşlığı Proqramında iştirakına dair geniş fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev:

# Zəngin mədəni-mənəvi irsimizin, ana dilimizin və adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanmasında Azərbaycan qadınlarının müstəsna xidməti var

Prezident İlham Əliyev 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib. Təbrikdə deyilir: "Hörmətli xanımlar! Sizi - bütün Azərbaycan qadınlarını Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm.



Milli varlığımızın ifadəsi olan zəngin mədəni-mənəvi irsimizin, ana dilimizin və adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanmasında Azərbaycan qadınlarının müstəsna xidməti vardır. Tariximizin mürəkkəb sosial-siyasi dəyişikliklərlə müşayiət olunduğu dövrlərdə onlar cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilmişlər. XX yüzilliyin ilk onilliklərində, bəzi qabaqcıl ölkələrin qadınlarından daha əvvəl seçki hüququ qazanaraq ictimai və mədəni həyatın müxtəlif sahələrində fəal iştirak etmələri onların gələcək uğurlarının da rəhni olmuşdur. Qürurverici haldır ki, müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı məhz mənəviyyatında milliliklə müasirliyin əsl vəhdətini yaratmış Azərbaycan qadını atmışdır.

Azərbaycan qadınları maarifpərvər sələflərinin davamçıları olaraq son yüz ildə ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin yeni əsaslar üzərində qurulması işində əzmkarlıq göstərmiş və nailiyyətlərlə dolu parlaq bir yol keçmişlər. Onlar müstəqilliyin bərpasından sonra istiqlal ideallarına sədaqətlə milli dövlətçiliyin təməlinin möhkəmləndirilməsi və ölkəmizin hazırkı simasının müəyyənləşməsində mühüm rol oynamış, bu gün də bilik və bacarıqlarını dinamik inkişaf yolunda inamla irəliləyən respublikamızın iqtisadi, mədəni və elmi potensialının artırılmasına sərf edirlər. Yüksək ictimai mövqe və nüfuzları Azərbaycan qadınlarının hüquq və azadlıqlarının tam təmin edilməsinin nəticəsi olub, müasir həyatımızın ən əlamətdar hadisələrindəndir.

Əminəm ki, siz Azərbaycan xanımları ailə dəyərlərimizin bundan sonra da layiqincə yaşadılmasına çalışacaq, gənc nəslin Vətənə, torpağa məhəbbət, müstəqil dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək, ölkəmizin davamlı yüksəlişi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Bayramınız mübarək olsun!"

# Azərbaycan-Türkiyə münasibətləri dünya üçün çox gözəl nümunədir

**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov martın 6-da Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



"İki sahil" AZƏRTAC-a istinadən xəbər verir ki, Mustafa Şentopu Türkiyə Böyük Millət Məclisinin sədri seçilməsi münasibətilə təbrik edən Baş nazir Novruz Məmmədov onun parlament sədri kimi ilk səfərini Azərbaycana etməsinin yüksək qiymətləndirildiyini vurğulayıb. Baş nazir bu səfərin qardaş ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

"Bu gün Azərbaycan-Türkiyə münasibətləri çox yüksək səviyyədədir. Qardaş ölkələrimiz arasındakı münasibətlər dünya üçün çox gözəl nümunədir. Azərbaycan və Türkiyə arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələri inkişaf etdirilərək həm ikitərəfli, həm də çoxtərəfli formatda böyük uğurlar əldə olunub. Bu əməkdaşlıq bizim ölkələrimizin, xalqlarımızın maraqlarına xidmət etməklə yanaşı, regionun inkişafına da mühüm töhfələr verir", - deyə Novruz Məmmədov qeyd edib.

Baş nazir Azərbaycanın və Türkiyənin nəqliyyat və energetika sahələrində birgə reallaşdırdıqları layihələrin ölkələrimiz arasındakı strateji tərəfdaşlıq əlaqələrinin inkişafına təkan verdiyini bildirib.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop iki dövlət arasında yeni vəzifəyə başlayan rəsmilərin ilk səfərlərini qardaş ölkəyə etmələrinin artıq bir ənənəyə çevrildiyini bildirərək, Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan Mustafa Şentop bildirib ki, ölkələrimiz tərəfindən həyata keçirilən qlobal əhəmiyyətli layihələr, o cümlədən "STAR" neft emalı zavodunun, Trans-Anadolu qaz kəmərinin istifadəyə verilməsi bu gün dünyada bənzəri olmayan Azərbaycan-Türkiyə münasibətlərinin göstəricisidir.

Parlament sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycanın yanında olduğunu, qardaş dəstəyinin daim davam etdiriləcəyini vurğulayıb.

Söhbət zamanı ölkələrimizin parlamentləri arasındakı əməkdaşlıqdan məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## FAZİL QURBANOV "ŞÖHRƏT" ORDENİ İLƏ TƏLTİF EDİLİB

Prezident İlham Əliyev Fazil Qurbanovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında elmi əlaqələrin inkişafında xidmətlərinə və səmərəli diaspor fəaliyyətinə görə Fazil Səməd oğlu Qurbanov "Şöhrət" ordeni ilə təltif edilsin.

## TOVUZDA AZƏRBAYCAN AŞIQ SƏNƏTİ MUZEYİ BİNASININ TİKİNTİSİNƏ MALİYYƏ VƏSAİTİ AYRILIB

Prezident İlham Əliyev Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncama görə, Tovuz rayonunda Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasının tikintisi işlərinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.67-ci bəndində göstərilmiş məbləğin 3 160 000 (üç milyon yüz altmış min) manatı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə ayrılır.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməli, Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməlidir.

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVANIN FƏALİYYƏTİ AZƏRBAYCAN QADINLARININ HANSI SƏVİYYƏYƏ YÜKSƏLDİYİNİ GÖSTƏRİR - *Komitə sədri*



**"Azərbaycanda əvvəllər qadınlar yalnız sosial problemlərinin həlli üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə müraciət edirdilər, indi edilən müraciətlər isə daha çox qadınların ictimai fəallığı ilə bağlıdır. Qadınlar komitəyə hansısa ictimai təşkilatların, müəssisələrin açılması üçün müraciət edirlər. Bu da bizi sevindirir".**

Bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova 3-cü "SHE Congress 2019" ("Smart. Happy. Elegant.") - qadınların liderlik və sahibkarlıq konfransında deyib. Onun sözlərinə görə, bu gün dövlət orqanlarında Azərbaycan qadınları yüksək vəzifələri tutur.

H.Hüseynova XXI əsr qadınlarının qarşısında yeni vəzifələr dayandığını söyləyib: "Bu gün Azərbaycan qadınlarının qarşısında yeni vəzifələr dayanıb. Biz necə etməliyik ki, qadın inkişafa tab gətirə bilsin? Qadın, ilk növbədə yüksək təhsilli olmalıdır ki, əmək bazarında rəqabətə davamlı olsun".

Komitə sədri qeyd edib ki, yalnız Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti Azərbaycan qadınlarının hansı səviyyəyə yüksəldiyini göstərir: "Uzun zaman belə bir stereotip yaranıb ki, Azərbaycan qadınları yalnız yaxşı evdar qadın, yaxşı ana olmalıdırlar. Amma Azərbaycan qadını ictimai-siyasi sahədə də fəal ola bilir".

H.Hüseynova vurğulayıb ki, qadınlar dövlətimizin yaratdığı bütün imkanlardan istifadə edirlər və dövlətin qayğısını görürlər: "Bu gün çox yaxşı haldır ki, qadınlar, xüsusilə gənc qızlar ictimai-siyasi proseslərə fəal cəlb olunurlar. Ölkəmizdə keçirilən ilk bələdiyyə seçkilərində qadınlar özlərinə inanmırdılar. Amma sonradan aparılan təbliğat nəticəsində qadınların bələdiyyə orqanlarında təmsilçiliyi artdı. Güclü, professional qadının fəaliyyətinin qarşısını heç kim ala bilmir".

Komitə sədri məlumat verib ki, hazırda qadın sahibkarların sayı ölkədəki bütün sahibkarların 30 faizini təşkil edir: "Azərbaycanın gənc dövlət olduğunu nəzərə alsaq, qısa zaman ərzində belə yüksəlişin olması təqdirəlayiqdir".

# SOCAR-ın prezidenti Rövnəq Abdullayevin



# 8 Mart - Beynəlxalq Qadınlar Günü

## münasibətilə neftçi qadınlara təbriki



## Əziz neftçi xanımlar!

**SİZİ 8 MART - BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ ÜRƏKDƏN TƏBRİK EDİR, HƏR BİRİNİZƏ UZUN ÖMÜR, MÖHKƏM CANSAĞLIĞI VƏ UĞURLAR ARZULAYIRAM.**

Azərbaycan qadını əsrlər boyu qəhrəmanlıq, qayğıkeşlik, şəfqət rəmzi kimi tanınmış, milli adət və ənənələrimizin qorunaraq nəsildən-nəslə ötürülməsində böyük rol oynamışdır. O, həm Vətənimizə layiqli övladlar verən mərd və fədakar bir ana, həm də ictimai həyatımızın bütün sahələrində kişilərlə eyni hüquqlar və vəzifələr daşıyan, onlarla çiyin-çiyinə çalışan məsuliyyətli bir vətəndaşdır.

Qadınlarımız bilik və bacarıqları, yüksək intellektləri və fədakar əməkləri ilə iqtisadiyyatımızın aparıcı qüvvəsi olan neft-qaz sənayesinin inkişafına da əvəzolunmaz töhfələr verir, Vətənimizin iqtisadi qüdrətinin daha da möhkəmlənməsi üçün yorulmadan çalışırlar. Əminəm ki, Azərbaycanın neftçi qadınları ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən qalibiyyətli enerji strategiyasının həyata keçirilməsi, müstəqil ölkəmizin iqtisadi qüdrətinin durmadan möhkəmlənməsi, xalqımızın rifah halının daha da yüksəldilməsi naminə bundan sonra da var qüvvələrini sərf edəcəklər.

## Əziz neftçi xanımlar!

**SİZİ BİR DAHA 8 MART - BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ SƏMİMİ QƏLBDƏN TƏBRİK EDİR, HAMINIZA FİRAVAN HƏYAT VƏ AİLƏ XOŞBƏXTLİYİ ARZULAYIRAM.**

*Hörmətlə,*

**Rövnəq Abdullayev,**
SOCAR-ın prezidenti

# “İqtisadiyyatın şaxələndirilməsi - özəl sektorun rolu üzrə yüksək səviyyəli Forum”



Martın 6-da Bakıda “İqtisadiyyatın şaxələndirilməsi - özəl sektorun rolu üzrə yüksək səviyyəli Forum” keçirilib.

AZƏRTAC xəbər verir ki, forumda çıxış edən Baş nazirin müavini Əli Əhmədov Azərbaycanda aparılan iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, keçən il Azərbaycan iqtisadiyyatında 1,4 dəfə artım qeydə alınıb. Qeyri-neft sektorunda 2 faizdən çox, kənd təsərrüfatında isə 3 faizdən artıq iqtisadi artım Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, aparılan islahatların nəticəsi kimi qiymətləndirilir.

Baş nazirin müavini qeyd edib ki, hər il Azərbaycanın əmək bazarına 100 min işçi qüvvəsi daxil olur. Bir neçə il sonra isə 120 minədək işçi qüvvəsi daxil olacaq. Bu, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində kiçik və orta sahibkarlığın inkişafı nəticəsində baş verəcək.



Ə.Əhmədov Dünya Bankının “Doing Business” hesabatında Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb və “Doing Business 2019” hesabatında Azərbaycanın 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasına daxil edildiyini vurğulayıb.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova Azərbaycanın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar sırasında Dünya Bankının xüsusi yeri olduğunu deyib. Bildirib ki, indiyədək Azərbaycanda həyata keçirilən layihələrə Dünya Bankından 4 milyard dollardan çox vəsait cəlb olunub. 1990-cı ildən bu vaxtadək Dünya Bankı ilə 50-dən çox layihə icra edilib.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon Azərbaycanda aparılan iqtisadi islahatların Dünya Bankı tərəfindən dəstəkləndiyini, ölkə rəhbərliyinin uğurlu sosial-iqtisadi siyasəti nəticəsində əldə olunan nailiyyətlərin yüksək qiymətləndirildiyini və Azərbaycanın digər ölkələr üçün örnək olduğunu qeyd edib.

M.Tembon ölkəmizdə həssas qrupların rifah halının yaxşılaşdırılması sahəsində atılan addımların təqdirəlayiq olduğunu deyib. O, Azərbaycanda sosial sahədə həyata keçirilən köklü islahatları yüksək qiymətləndirdiklərini, ölkəmizdə əmək, məşğulluq, sosial müdafiə sahəsində aparılan islahatların mühüm əhəmiyyət kəsb etdiyini, bu islahatlar prosesində Dünya Bankı ilə birgə işlərin gələcəkdə də uğurla davam edəcəyinə əminliyini bildirib.

“Rəqəmsal ödənişlərin artırılması və nağdsız cəmiyyətə gedən yol” mövzusunda təqdimatla çıxış edən Mərkəzi Bankın ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru Kəmalə Qurbanovanın sözlərinə görə, qarşıdakı 5 ildə Azərbaycanda nağdsız ödənişlərin 52 milyard manatadək artacağı nəzərdə tutulur. O qeyd edib ki, eyni zamanda, nağd iqtisadiyyatın çəkisinin 34 faiz azaldılması planlaşdırılır. Son 3 ildə Milli ödəniş sistemi üzrə aparılan dövriyyə 79 faiz artaraq 274 milyard manat olub. Həmin dövrdə kart ödənişlərində nağdsız dövriyyə isə 136 faiz artaraq 2,8 milyard manata çatıb.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri Orxan Məmmədov agentliyin fəaliyyəti, görülən işlər barədə məlumatlandırıcı təqdimat edərək bildirib ki, “KOB Dostu” şəbəkəsinin, sahibkarların dövlət xidmətlərinə rahat çıxışının təmin edilməsi, KOBİA-nın çoxsaylı dəstəklərinin, biznesdən-biznesə xidmətlərin vahid məkanda təşkili ilə bağlı KOB evlərinin təşkili istiqamətində aktiv iş aparılır.



“Hazırda 12 “KOB Dostu” fəaliyyət göstərir, bu il Bakıda ilk KOB evi fəaliyyətə başlayacaq. Agentliyin fəaliyyətinin mühüm istiqamətlərindən biri də müvafiq sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi və bu prosesdə KOBİA olaraq KOB maraqları baxımından çıxış etməkdir. Agentliyin təklifləri əsasında “Kiçik və orta sahibkarlığın inkişafı haqqında” Qanun layihəsi hazırlanıb, Vergi Məcəlləsinə KOB-lar üçün bir sıra yeni güzəştləri nəzərdə tutan dəyişikliklər edilib, KOB-ların müəyyənləşdirilməsi üçün yeni meyarlar təsdiqlənib, kommunal xidmətlərə qoşulma prosedurları sadələşdirilib, dövlət satınalmaları haqqında qanunvericiliyə mütərəqqi dəyişikliklər olunub”, - deyə O.Məmmədov vurğulayıb.

Sonra Dünya Bankının nümayəndələri, dünya iqtisadiyyatının bəzi sahələri və bu sahələrdə Azərbaycanın tutduğu mövqe barədə təqdimatlarla çıxış edib.

Forum öz işini panel iclasla davam etdirib. İclasda Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov Dünya Bankı ilə uzun illər ərzində həyata keçirilən səmərəli əməkdaşlıq məsələlərini önə çəkərək bildirib ki, bankı 25 ildən artıq müddətdə ölkəmizdə iqtisadi islahatların uğurla aparılmasına, xüsusilə infrastruktur quruculuğu, aqrar inkişaf və inzibati idarəetmənin təkmilləşməsinə mühüm töhfə verib.

E.Rüstəmov dayanıqlı iqtisadi artıma nail olmaqda makroiqtisadi sabitliyin rolu, bütövlükdə makroiqtisadi siyasətdə son məyillər, xüsusilə də pul siyasəti sahəsində islahatlara toxunaraq qeyd edib ki, ötən dörddəbir əsrə yaxın bir dövrdə Azərbaycanda dövlət və iqtisadi quruculuq sahəsində görülmüş işlər, yaradılmış milli potensial onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin rəhbərliyi altında yeni strateji dövrün çağırışlarına da layiqli cavab veriləcək.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycanda qeyri-formal məşğulluqla mübarizənin müsbət nəticələri barədə məlumat verib.

“Bu ilin yanvar-fevral aylarında əmək müqavilələrinin sayı 53 min artıb. Qeyri-formal məşğulluqla mübarizə tədbirləri və görülən çoxşaxəli işlər nəticəsində ötən il əmək müqavilələrinin sayı 90 mini ötüb. Bu ilin ilk iki ayında isə əmək müqavilələrinin sayı 53 min artıb. Bu müqavilələrin 13 mini dövlət, 40 mini isə özəl sektorun payına düşür”, - deyə nazir vurğulayıb.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov isə bildirib ki, Azərbaycanda iqtisadi inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən müəyyən edilib. Ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafı, rəqabətqabiliyyətliliyin artırılması, dərin iqtisadi şaxələndirmə, sənayeləşmənin genişləndirilməsi, sahibkarlığın inkişafı, bunun üçün institusional dəstək mexanizmlərinin təkmilləşdirilməsi və genişləndirilməsi, Azərbaycan iqtisadiyyatının ixrac potensialının artırılması, sənaye sahəsində məşğulluğun genişləndirilməsi barədə danışan nazir müavini gələcəkdə görüləcək işləri qeyd edib.

“Ölkə başçısı tərəfindən qəbul edilən strateji sənədlərin, strateji yol xəritələrinin, dövlət proqramlarının, fərman və sərəncamların icrası istiqamətində sistemli işlər həyata keçirilib, kompleks tədbirlər görülüb, gələcəyə inkişaf üçün baza yaradan nailiyyətlər əldə olunub. Sahibkarlıq sahəsində dövlət tənzimlənməsinin, dövlət nəzarət sisteminin təkmilləşdirilməsi istiqamətində atılan addımlar bir daha nəzərdən keçirilib”, - deyə N.Səfərov vurğulayıb.

Azərbaycanda yaradılan sənaye məhəllələri və sənaye parkları barədə məlumat verən N.Səfərov deyib ki, Azərbaycanda 5 sənaye parkı, 4 sənaye məhəlləsi var. Təkcə Sumqayıt Kimya Sənaye Parkında 3 milyard dollar həcmində investisiya yatırılıb və burada yerləşən müəssisələrdə 6 minədək insan çalışır.

Forumda iqtisadiyyatın şaxələndirilməsi, əsasən də özəl sektorun bu prosesdəki rolu barədə müzakirələr aparılıb.

MÜSAHİBƏ

# Qadına, anaya münasibətin ən unikal nümunəsi məhz Azərbaycandır

**YAP Qadınlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü, Bakı Slavyan Universitetinin rektoru, professor Nurlana Əliyevanın www.yap.org.az saytına müsahibəsi**



***- Nurlana xanım, söhbətimizə əvvəlcə Azərbaycanda həyata keçirilən dövlət qadın siyasətinin səciyyəvi xüsusiyyətləri barədə fikirlərinizi öyrənərək başlamaq istərdik...***

- Azərbaycan dünyada nümunəvi və mütərəqqi inkişaf modeli ilə fərqlənir. Bu inkişafı təmin edən isə ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin Onun layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsidir. Bunun nəticəsidir ki, cəmiyyət həyatının bütün sahələrində tərəqqi və yüksək vətəndaş fəallığı müşahidə edilir. Bu baxımdan, Azərbaycan qadınları da müxtəlif sahələrdə - elm, təhsil, mədəniyyət, incəsənət və digər sahələrdə uğurla fəaliyyət göstərirlər, dövlət idarəçiliyində, qanunvericilik orqanında müvəffəqiyyətlə təmsil olunurlar. Yeni Azərbaycan qadınları bu gün dövlət quruculuğunda, ölkənin ictimai-siyasi həyatında daha fəal iştirak edərək Vətənimizin sosial-iqtisadi, elmi-intellektual potensialının artırılmasına, milli dəyərlərimizin və mədəniyyətimizin təbliğinə, inkişafına layiqli töhfələrini verirlər. Elə ümummilli lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının (YAP) sıralarında yer alan intellektual, ləyaqətli və milli maraqların qətiyyətli müdafiəçisi kimi çıxış edən qadınlarımız idarəetmədə, o cümlədən qanunvericilik orqanında səmərəli, məqsədyönlü, milli mənəvi dəyərlərə əsaslanan fəaliyyətləri ilə fərqlənirlər. Onlar, həmçinin ölkəmizi beynəlxalq müstəvidə ləyaqətlə təmsil edərək Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırırlar.

Azərbaycan qadını Vətənin bugünkü yüksəlişinin müdhiş sınaqlardan keçərək bu əmin-aman günlərimizə necə yetişdiyini heç bir zaman unutmayacaq. Bu bütövlüyü qorumaq üçün özünü səfərbər edərək əməyi, zəhməti, ağlı, elmi, bacarığı, sədaqəti ilə bu yüksəlişə dayaq olacaq. Xüsusi olaraq diqqətə çatdırmaq istəyirəm ki, Azərbaycan qadınının bugünkü fəallığının, cəmiyyət həyatının müxtəlif sahələrdə uğurla və ləyaqətlə təmsil olunmasının təmin olunmasında ulu öndər Heydər Əliyevin Azərbaycançılıq siyasətinin təsiri misilsizdir.

Azərbaycanda qadın hərəkatının genişlənməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra başlayıb. Bu hərəkat Ulu Öndərin rəhbərlik etdiyi dövlətdə qadınlarımıza yüksək etimadın göstərilməsi, onların daim irəliyə çəkilməsi ilə səciyyələnir. Əminliklə söyləmək olar ki, Azərbaycanın dövlətçilik tarixində ulu öndər Heydər Əliyevə qədər Azərbaycan qadınını fikrən və ruhən pərvazlandıran, onu böyük cahanşümul işlərə ruhlandıran, onun cəmiyyətdə layiq olduğu yeri təmin edən ikinci bir dövlət rəhbəri olmayıb. Bu, tarixi gerçəklikdir və Azərbaycan qadınına olan yüksək hörmət, diqqət, qayğı və ehtiramın əyani ifadəsidir.

Bilirsiniz ki, ümummilli lider Heydər Əliyevin müvafiq qərarı ilə 1995-ci ildə Yeni Azərbaycan Partiyasının Qadınlar Şurası yaradıldı. Bu zərif, eyni zamanda, güclü zümrəni partiyamızın sıralarına dəstə-dəstə gətirən amil qadınlarımızın Heydər Əliyev zəkasına, Onun müdrik siyasətinə olan böyük inam və etibar idi. Azərbaycan qadınları Ulu Öndərin rəhbərlik etdiyi ölkəmizin tərəqqi yolunda inamla irəliləyərək böyük zirvələr fəth edəcəyinə əmin idilər. Onlar inanırdılar ki, övladları yalnız Heydər Əliyevin ideyaları və siyasəti ilə idarə olunan cəmiyyətdə xoşbəxt ola biləcəklər. Bu sarsılmaz inama malik olan Azərbaycan qadınları YAP-ın sıralarında böyük bir orduya çevrilərək, cəmiyyət həyatının müxtəlif sahələrində daha fəal iştirak edərək ölkəmizin inkişafına layiqli - dəyərli töhfələr verməyə davam etdilər. Beləliklə, ümummilli lider Heydər Əliyev bununla partiya sıralarına həm də ana qayğısı və şəfqəti gətirmiş oldu.

Sevindirici haldır ki, bu siyasət Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, cəmiyyətin digər təbəqələrindən olan insanlar kimi, qadınlarımız da yüksək diqqət və qayğı ilə əhatə olunurlar. Bu gün Azərbaycan qadınları dövlətin onlara göstərdiyi yüksək diqqətdən razıdırlar, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti qətiyyətlə dəstəkləyirlər. Çünki onlar görürlər ki, bu siyasət inkişafa, firavanlığa xidmət edir, Azərbaycanın qüdrətinin daha da artmasını, ölkəmizin əzəmətli və möhtəşəm nailiyyətlər qazanmasını təmin edir. Azərbaycan qadınları həm də ölkəmizdə həyata keçirilən mütərəqqi gənclər siyasətinin əhəmiyyətini və nəticələrini bilirlər, onlar anlayırlar ki, bu siyasət övladlarının xoşbəxtliyinə, səadətinə xidmət edir.

Azərbaycan qadını Vətən üçün milli mənəvi dəyərlərimizin qoruyucuları, adət-ənənələrimizin yaşadıcıları olan, nəsillər arasında varisliyi ləyaqətlə davam etdirən övladlar tərbiyə edib yetişdirirlər. Onların tərbiyə etdikləri gənclər ölkəmizin inkişafına layiqli töhfələr verir, Azərbaycanı beynəlxalq səviyyədə uğurla təmsil edirlər. Azərbaycan analarının tərbiyə etdiyi övladların Vətən qarşısında bu cür xidmətlər göstərməsi həm də qadınlarımızın hünəri və fərasətinin əyani ifadəsidir. Azərbaycan analarının tərbiyə etdiyi gənclik həm milli mənəvi dəyərlərə bağlıdır, həm də mütərəqqi dəyərləri özündə ehtiva edir. Onlar möhkəm əqidəyə sahibdirlər. Biz bunun örnəyini bir çox nümunələrin timsalında göstərə bilərik. Heç uzağa getməyək, aprel döyüşləri zamanı Azərbaycan gəncliyinin nümayəndələri böyük cəsarət və rəşadət nümunəsi ortaya qoydular. Azərbaycan gəncliyinin yüksək vətənpərvərlik ruhu mənfur qonşularımıza, həmçinin bütün dünyaya bir daha bəlli oldu. Əlbəttə, bu nümunələrin sayını istənilən qədər artırmaq olar, amma təkcə bu örnək bütün deyilənləri sübuta yetirir.

Azərbaycan gəncliyi müxtəlif istiqamətlərdə uğurla fəaliyyət göstərməklə yanaşı, yüksək təhsilə yiyələnən, milli-mənəvi dəyərlərin daşıyıcı olan fəal təbəqə kimi çıxış edirlər. Bu gün Bakı Slavyan Universitetində (BSU) də yüksək intellektual potensiala malik olan, vətənpərvər gənclər təhsil alırlar, universitet və cəmiyyət həyatında fəallıqları ilə seçilirlər. Ümumiyyətlə, Bakı Slavyan Universiteti Azərbaycan ilə slavyan ölkələri arasında intellektual körpü rolunu oynayır. Universitetimiz ilə slavyan ölkələrinin ali təhsil müəssisələri arasında çox sıx və səmərəli əməkdaşlıq mövcuddur. Cari ilin aprel ayında BSU ilə Moskva Dövlət Linqvistik Universitetinin birgə beynəlxalq konfransı keçiriləcək. Bu yaxınlarda Maksim Tank adına Belarus Dövlət Pedaqoji Universiteti tərəfindən Böyük Vətən müharibəsi qəhrəmanlarının xatirəsini yad etmək məqsədilə keçirilən “54-cü ulduz yürüşü” adlı beynəlxalq tədbirdə Bakı Slavyan Universitetinin bir qrup fəal tələbəsi də iştirak edib. Milli geyimdə olan tələbələrimizin Azərbaycan mədəniyyətini və tarixini Belarusda layiqli səviyyədə təmsil etmələri rektor, professor Aleksandr Juk tərəfindən müsbət qarşılanıb. Bundan başqa, bu il Bakı Slavyan Universiteti Azərbaycan Slavyan Gənclərinin Birinci Forumuna ev sahibliyi edib. Forum Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Slavyan Gəncləri Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilib.

Bütövlükdə, universitetimiz hər zaman gənclərin fəallığının və intellektual potensialının artırılmasına, cəmiyyət həyatında və beynəlxalq müstəvidə aktiv təmsil olunmalarına xüsusi diqqət yetirir.

***- Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ayrı-ayrı sahələrdə qarşıya qoyulmuş məqsədlərin gerçəkləşdirilməsinə, milli maraqlardan irəli gələn strateji əhəmiyyətli vəzifələrin reallaşdırılmasına xidmət edən səmərəli fəaliyyəti ilə xalqımızın dərin rəğbətini və sevgisini qazanıb. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti həm də qadınlar üçün parlaq nümunədir. Bununla bağlı düşüncələriniz nədən ibarətdir?***

- Azərbaycanın Birinci vitse-prezidenti, YAP-ın Sədr müavini, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın milli maraqlara, ümumbəşəri dəyərlərə əsaslanan səmərəli, məqsədyönlü fəaliyyəti qadınlarımız üçün mütərəqqi və müsbət nümunədir. Mehriban xanım Əliyeva, hər şeydən əvvəl, Azərbaycan qadınları üçün müasir dünyamızda bəşəriyyətə faydalı olmağın yeni meyarlarını müəyyən edən parlaq örnəkdir. Bu gün adı cəmiyyətimizdə xeyirxahlıq, insanlara kömək, nəciblik, alicənablıq məzmunu ilə assosiasiya olunan Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti xalqımızın və dövlətimizin mənafeyinə əsaslanır. Biz, həmçinin həyatının əlamətdar günlərini, milli bayramlarımızı bir qayda olaraq valideyn himayəsindən məhrum qalmış və yaxud fiziki qüsurlu uşaqlarla keçirən Mehriban xanım Əliyevanın timsalında qəlbi məhəbbətlə döyünən qayğıkeş bir ana obrazını görürük.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Azərbaycan reallıqlarının dünyada təbliğinə xidmət edən çoxsaylı unikal və universal layihələr reallaşdırılır. Bu layihələr ümummilli məqsədlərə xidmət edir, müasir müstəqil və qüdrətli Azərbaycanın müsbət beynəlxalq imicinin daha da möhkəmlənməsinə müstəsna töhfələr verir. Yəni, Mehriban xanım Əliyeva Azərbaycanı, xalqımızın zəngin tarixi köklərə söykənən ənənələrini, qonaqpərvərlik, humanizm, tərəqqipərvərlik, sülhsevərlik və digər ali - yüksək və nəcib keyfiyyətlərini bütün dünyaya təqdim edir, beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, o cümlədən mədəniyyət və idman tədbirlərinə uğurla ev sahibliyi edib. Nüfuzlu “Eurovision-2012” beynəlxalq mahnı müsabiqəsi, 2015-ci ildə paytaxtımızda keçirilən ilk Avropa Oyunları və 2017-ci ildə Bakıda keçirilən IV İslam Həmrəylik Oyunları zamanı Azərbaycan reallıqları dünyaya uğurla təqdim edildi. Ölkəmizin inkişafı, heyrətamiz, möhtəşəm nailiyyətləri qarşısında dünya “içini çəkdi”. “İçini çəkmək” unikal və bənzərsiz reallıqların doğurduğu unikal bir hiss kimi heyrət və təəccübdən daha güclüdür. Bununla yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə gerçəkləşdirən layihələr ölkəmizin hüdudları ilə məhdudlaşmır, daha dəqiq desək, sərhəd tanımır, bir çox ölkələri, qitələri əhatə edir. Heydər Əliyev Fondunun “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi çərçivəsində Pakistanda, Gürcüstanda, Misirdə, Rusiyada bir neçə məktəbin yenidən qurulmasına, Vatikanda Müqəddəs Roma katakombalarının və Strasburq Kafedral kilsəsinin bərpasına dəstək nümayiş etdirməsi bunun əyani ifadəsi olan faktlardandır. Pakistanda qızlar üçün yeni məktəbin tikintisi, İslamabadda, eləcə də Pakistanın digər əyalətlərində, Bolqarıstanda silsilə xarakterli humanitar aksiyaların keçirilməsi də xüsusi qeyd edilməlidir. Versal sarayının bir hissəsinin, Luvr muzeyi qalereyasından birinin bərpası, Həştərxanda Azərbaycan-Rusiya dostluq körpüsünün tikilməsi, Müqəddəs Mələksima Knyaz Vladimirə Rusiyada ilk abidə ucaldılması və digər layihələr də Heydər Əliyev Fondunun yüksək zövqlə xeyriyyəçilik işlərini əks etdirən nümunələrdəndir. Tolerantlığın, multikulturalizm ənənələri və dəyərlərinin dünyaya çatdırılması, əslində, dünyanı əmin-amanlığa, barışa, firavanlığa dəvət etmək, xalqları bir-birinin dininə, dilinə, milli dəyərlərinə, ənənələrinə və mədəniyyətinə hörmətlə yanaşmağa çağırmaqdır, Azərbaycanın mütərəqqi simasını dünyaya təqdim etməkdir.

Ali məramlara söykənən fəaliyyəti ilə Azərbaycan cəmiyyətində novator olan Mehriban xanım Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyətinin Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında aktiv iştiraka marağının artması, qadın fəallığı ənənələrinin güclənməsində rolu danılmazdır. Bu fədakar fəaliyyətin sahibi istər siyasətdə, istər cəmiyyətin taleyində oynadığı rola görə qeyri-adi şəxsiyyət olduğunu təsdiq etmiş olur.

***- Nurlana xanım, rəhbərlik etdiyiniz YAP Qadınlar Şurasının cəmiyyət həyatının müxtəlif sahələrində qadın fəallığının artırılmasında rolu nədən ibarətdir?***

- Bu gün Azərbaycan dövlətinin rəhbəri möhtərəm İlham Əliyevin yürütdüyü daxili siyasət analara dayaq, gələcək haqqında ülvi arzularına dəstəkdir. Öz ölkəsinin siyasətindən məmnun yaşamaq - vətəndaş üçün bundan daha önəmli, daha vacib heç nə ola bilməz. Bu yaxınlarda minimum əməkhaqqının artırılması, əhalinin kredit borclarının bağışlanması, şəhid ailələrinə xeyli miqdarda birdəfəlik yardımın verilməsi bayramlar ərəfəsində yaşayan qadınlarımıza ən böyük töhfədir, köməkdir. Lakin bu siyasətin daha diqqətəsayan cəhəti həyatımızı ildən-ilə intibaha aparan tərəqqinin qəlbimizdə oyatdığı sarsılmaz inamdır. Ölkə vətəndaşlarının öz rəhbərinə, dövlətinə, onun siyasətinə güvənərək inamla yaşamaları sülhü, əmin-amanlığı qoruyan əsas amildir. Bu inam həm də partiyamızın dövlətimizin inkişafı istiqamətində həyata keçirdiyi işlərdə qadınlarımızın da fəal iştirakını təmin edir. Bu baxımdan, YAP Qadınlar Şurasının fəaliyyətini ayrıca vurğulamaq lazımdır. Qadınlar Şurasının yaradılması və fəaliyyəti ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasında qadınların roluna və təmsilçiliyinə verilən önəmdən qaynaqlanır. YAP Qadınlar Şurası dövlətçiliyə xidmət fəlsəfəsi və ümummilli lider Heydər Əliyevin ideyaları əsasında öz fəaliyyətini davam etdirir. Bu gün YAP-ın sıralarında 730 mindən çox insan birləşib və bu, böyük bir ordudur. Bu ordunun sıralarında qadınlar təxminən 50 faiz təmsil olunurlar. YAP öz ideyalarını həyata keçirərkən qadınlara və gənclərə də istinad edir, onların fəaliyyətinə böyük önəm verir. Partiyamızın Qadınlar Şurasının İdarə Heyətinin üzvləri sırasında elm xadimləri, cəmiyyətin ən fəal insanları yer alır. Bundan başqa, təşkilatımızın sıralarında həkimlər, müəllimlər, digər peşə sahiblərindən olan ziyalılar təmsil olunurlar. Hər il çoxsaylı vətənpərvər və ziyalı qadınlarımız YAP-ın sıralarına daxil olurlar.

Bütövlükdə, YAP Qadınlar Şurası cəmiyyətdə qadın fəallığının artırılmasına öz töhfələrini məsuliyyət və məhəbbətlə təqdim edir, təşkilatımızın sıralarında birləşən qadınların səmərəli fəaliyyəti təşviq olunur. Partiyamızın Qadınlar Şurası müstəqil fəaliyyət göstərdiyi kimi, həm də müxtəlif dövlət qurumları, xüsusilə də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə, gənclər təşkilatları ilə birlikdə mühüm layihələr və tədbirlər həyata keçirir. Diqqətə çatdırmaq istəyirəm ki, bir müddət öncə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Yeni Azərbaycan Partiyasının Qadınlar Şurası, “Təmiz ürək” İctimai Birliyi və Cəbrayıl Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Cocuq Mərcanlıda bayram tədbiri keçirildi. Cocuq Mərcanlıda gördüklərimiz - dövlətimiz tərəfindən Azərbaycan vətəndaşına yaradılan şərait, həyata keçirilən layihələr və cocuq mərcanlılıların öz doğma kəndlərində firavan həyatı vətənpərvərlik, fədakarlıq nümunəsi, ülvi arzulara yetmək yolunun başlanğıcı kimi bizdə böyük məmnunluq, mənəvi razılıq, dövlətimizin müdrik siyasətinə bir daha böyük məhəbbət yaratdı. Bu məhəbbət həm də Azərbaycan anasının öz övladlarını milli mənəvi keyfiyyətlərə, vətənpərvərlik, xeyirxahlıq, humanizm, qədirbilənlik, sədaqət hissləri ilə tərbiyə etməyə, elmli, bilikli, bacarıqlı, peşəkar vətəndaş kimi yetişdirməyə sövq edir. Onun XXI əsrin, modern cəmiyyətin ləyaqətli vətəndaşı olaraq yetişməsi üçün çiyinlərimizə vəzifələr qoyur.

Nəticə etibarilə Azərbaycan qadını, Azərbaycan anası bu gün layiq olduğu dəyərə, hörmətə çataraq yüksək diqqət və qayğı ilə əhatə olunub. Hər bir dövlətin siqləti həm də qadına, anaya münasibətdə ölçülür. Qadına, anaya münasibətin ən unikal nümunəsi isə məhz Azərbaycandır.

## Azərbaycanda 30 min YENİ İŞ YERİ açılacaq

Yaxın illərdə Azərbaycanın əmək bazarı əhəmiyyətli dərəcədə genişlənəcək. Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Bakıda "İqtisadiyyatın şaxələndirilməsi - özəl sektorun rolu" forumunda deyib.

Nazir bildirib ki, ölkədə qeyri-rəsmi məşğulluqla mübarizə çərçivəsində həyata keçirilmiş islahatlar nəticəsində bu ilin ilk iki ayı ərzində əmək müqavilələrinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 53 min çox olub:

"Vergi sahəsində həyata keçirilmiş islahatlar da əmək bazarının vəziyyətinə müsbət təsir göstərəcək. Hesab edirik ki, yaxın illərdə əmək bazarını əhəmiyyətli dərəcədə genişləndirə biləcəyik".

S.Babayev əlavə edib ki, "İşsizin DOSTu" proqramı çərçivəsində otuz min yeni iş yerinin açılması nəzərdə tutulur ki, bu da vətəndaşların məşğulluq səviyyəsini artıracaq.

## *Leyla Abdullayeva:* Ermənistan vətəndaşı olan gənclərin Azərbaycanın işğal olunmuş ərazilərində nə işi var?!



Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat katibi Leyla Abdullayeva Ermənistan xarici işlər naziri Z.Mnatsakanyanın bu ölkənin ictimai televiziyasına verdiyi müsahibəsinə münasibət bildirib. Trend-in məlumatına görə, verilən şərhdə deyilir: "Ermənistan xarici işlər nazirinin qeyd etdiyiniz müsahibəsində bu ölkənin siyasi rəhbərliyi tərəfindən verilən bəyanatlar təkrar olunur və Ermənistan baş nazirinin Dağlıq Qarabağdakı insanlar adından danışa bilməyəcəyi, onun "Tavuşdan Sünik ərazisinədək yaşayan Ermənistan sakinləri adından danışmaq ixtiyarının olduğu" iddia edilir. O zaman daha öncə səsləndirdiyimiz sualı bir daha qeyd etmək istərdim: belə olduğu təqdirdə seçkilər zamanı ona səs vermiş Ermənistan vətəndaşı olan gənclərin Azərbaycanın işğal olunmuş ərazilərində nə işi var?!

Ermənistan naziri bu ilin 16 yanvar tarixində Parisdə ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən verilmiş bəyanatı xatırlamaya bilər, lakin ötən ilin 6 dekabr tarixində Milanda şəxsən özünün də razılığı ilə qəbul edilmiş birgə bəyanatı yəqin ki, unutmayıb. O bəyanatda deyilir ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri münaqişənin ədalətli və davamlı sülh yolu ilə həlli üzrə işləməyi davam etdirəcəklər. Azərbaycan tərəfi görüşləri sadəcə görüşlər naminə keçirmir və beynəlxalq ictimaiyyəti bu kimi görüşlərlə öz xoş niyyətinə inandırmaq kimi məqsədi də yoxdur. Bizim məqsədimiz birdir, qətidir və hüquqi əsaslıdır: Biz Ermənistan tərəfindən beynəlxalq hüququn prinsiplərinin kobud şəkildə pozularaq işğal edilən ərazilərimizin azad edilməsi və bu ərazilərə yerli azərbaycanlıların köçürülməsini sülh yolu ilə təmin etmək məqsədilə danışıqlar aparırıq".

"Ermənistan vətəndaşları adından danışmağa mandatı olduğunu bəyan edən bu ölkənin siyasi rəhbərliyinə bildirmək istərdik ki, belə olduğu təqdirdə, Tavuş, Sünik və digər ərazilərdən olan və Azərbaycanın işğal olunmuş ərazilərində hərbi xidmət göstərən Ermənistan vətəndaşları adından danışsın", - deyə mətbuat katibi bildirib.

## *Əli Əhmədov:* Ötən il Azərbaycan iqtisadiyyatı 1,4 faiz artıb

2018-ci ildə Azərbaycan iqtisadiyyatı 1,4 faiz artıb. Bu barədə Baş nazirin müavini Əli Əhmədov martın 6-da Bakıda keçirilən "İqtisadiyyatın şaxələndirilməsi - özəl sektorun rolu üzrə yüksək səviyyəli Forum"da deyib.

Əli Əhmədov bildirib ki, keçən il qeyri-neft sektorunda 2 faizdən çox, kənd təsərrüfatında isə 3 faizdən artıq iqtisadi artım Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, aparılan islahatların nəticəsi kimi qiymətləndirilir.

Baş nazirin müavini qeyd edib ki, bir neçə ilə Azərbaycanın əmək bazarına 120 minədək işçi qüvvəsi daxil olacaq. Bu isə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində kiçik və orta sahibkarlığın inkişafı nəticəsində baş verəcək.



## *Vüqar Rəhimzadə:* Qanunları pozub dövlətə xəyanət yolu tutanlar ən ağır cəzaya layiqdir

**İnsanlar müxtəlif siyasi baxışlara, fərqli düşüncələrə sahib ola bilərlər. Lakin xalqın, dövlətin maraqlarından söhbət düşəndə bütün mövqelər birləşməli, dövlət və milli mənafelər hər şeydən üstün tutulmalıdır. Əgər bir insan bu ali keyfiyyətlərdən məhrumdursa və dövlətə xəyanət yolunu tutubsa o, ən ağır cəzaya layiqdir.**



Bu günlərdə Cinayət Məcəlləsinin 281.2-ci (Dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.1-ci (Milli, irqi nifrət və düşmənçiliyin salınması, milli ləyaqətin alçaldılması) maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə şübhəli bilinərək, məsuliyyətə cəlb edilən Fəxrəddin Abbasov da belələrindəndir. Hesab edirəm ki, cəmiyyət bu cür çürük ünsürlərdən təmizlənməli, dövlətə, xalqa xəyanət yolunu tutanlar qanunun yol verdiyi ən ağır şəkildə cəzalandırılmalıdırlar.

AZƏRTAC xəbər verir ki, bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

"Fəxrəddin Abbasovun düşmən Ermənistana səfərləri, özünün də qeyd etdiyinə görə, erməni xüsusi xidmət orqanının əməkdaşı ilə görüşlərinin və əlaqələrinin mahiyyəti, Ermənistanda keçirilən və kütləvi informasiya vasitələrində, həmçinin sosial şəbəkələrdə yayımlanan tədbirlərə canlı yayımda qoşularaq Azərbaycan və onun ərazi bütövlüyü əleyhinə etdiyi çağırışlar və s. məsələlərlə bağlı istintaq araşdırmaları davam etdirilir. Təbii ki, bütün bu məqamlar ən ciddi şəkildə araşdırılacaq. Maraqlıdır, bir insan öz Vətəninə qarşı bu qədərmi nankor olar?! Bu torpağın suyunu içib, çörəyini yemək, sonra da ona qarşı xəyanət yolunu tutmaq hansı insanlığa, mənəvi dəyərlərə uyğundur?! Hər bir halda cinayət heç vaxt cəzasız qalmamalıdır. O zaman haqq, ədalət öz yerini tapır", - deyə Vüqar Rəhimzadə qeyd edib.

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, Fəxrəddin Abbasov kimi Vətən xainlərinin həbsini siyasiləşdirmək əbəsdir: "Bu gün Qərbin bəzi QHT-ləri, erməni və ermənipərəst qüvvələr, eyni zamanda müxtəlif qərəzli dairələr insan hüquq və azadlıqları adı altında başqa ölkələrə təzyiq göstərməyə çalışırlar və bu çirkin siyasət uzun illərdir ki, davam edir. Əslində isə bunun demokratik dəyərlərlə, insan hüquq və azadlıqları ilə heç bir əlaqəsi yoxdur. Burada hansısa "maraqlar" və "mənafelər" ön plana çıxır. Ancaq dünya artıq bu ikili standartlardan xəbərdardır və onlara boyun əymir. Bu mənada Fəxrəddin Abbasovun həbsini siyasiləşdirmək, ona başqa don geydirmək yolverilməzdir. Azərbaycanın bütün vətəndaşları qanun qarşısında bərabərdir və eyni məsuliyyəti daşıyırlar. Qanunlara əməl edənlər hörmətə, onları pozub dövlətə xəyanət yolu tutanlar isə ən ağır cəzaya layiqdir."

## PROBLEMLİ KREDİTLƏRİN HƏLLİ: vətəndaşlar üçün ən məqbul variantlar seçilir

Güclü iqtisadi və sosial siyasət Azərbaycanda dövlətin prioritet istiqamətlərindən biridir. Ölkə başçısı dəfələrlə bəyan edib ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son illər ölkəmizdə görülən işlərin əsas məqsədi vətəndaşların rifah halını yüksəltmək, işsizliyi, yoxsulluğu aradan qaldırmaqdır. Dövlətimizin başçısının 2019-cu ilin başlanğıcından imzaladığı sosial xarakterli Fərman və sərəncamlar əhalinin sosial müdafiəsini daha da gücləndirmək, rifah halını yüksəltmək, layiqli həyat səviyyəsini təmin etmək istiqamətində unikal addımların atılmasının parlaq nümunəsidir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı bir daha göstərdi ki, əhalinin sosial müdafiəsini və layiqli həyat səviyyəsini təmin etmək dövlətin sosial-iqtisadi inkişaf konsepsiyasının prioritet istiqamətidir. Sosial əhəmiyyəti kifayət qədər yüksək olan, 800 mindən çox insanı əhatə edən bu Fərmana məsələnin həlli üçün dövlət tərəfindən 700 milyon manatdan çox vəsait ödəniləcək.

Ekspertlər qeyd edirlər ki, respublikamızda sistemli şəkildə aparılan islahatların davamı olan bu mühüm əhəmiyyətli tədbirin icrası vətəndaşlarımızın sosial rifah halının yaxşılaşmasına, dövlət-özəl sektor münasibətlərinin və biznes mühitinin inkişafında əhəmiyyətli rol oynayacaq.

Problemli kreditlərin özəl banklar ilə vətəndaşlar arasında olan bir məsələ olmasına baxmayaraq, ölkə başçısının məsələyə müdaxiləsi nəticəsində dövlət bu öhdəlikləri də öz üzərinə götürdü ki, vətəndaşlarımızın çətinlikləri



öz həllini tapsın, əhalinin rifah halı daha da yaxşılaşsın. Bu yaxınlarda ölkə başçısı iqtisadi və sosial məsələlərə bağlı keçirilən müşavirədə qeyd etmişdi ki, Azərbaycan problemli kreditlər məsələsinin həlli ilə bağlı da öz liderliyini göstərəcək və çox ciddi nümunə göstərəcək: "Çünki biz bilirik ki, buna oxşar addımların atılması ilə bağlı bəzi ölkələrdə müvafiq qərarlar qəbul edilmişdir, ancaq onlar icra edilməmişdir. Yəni burada xoş niyyətin olması əsas şərt deyil. Burada, əlbəttə ki, düzgün təhlilin aparılması və vətəndaşlar üçün ən məqbul variantın seçilməsidir".

Ölkə başçısının vurğuladığı kimi, Azərbaycan problemli kreditlərin həlli məsələsində həqiqətən güclü siyasi iradə nəticəsində öz liderliyini bir daha təsdiq edərək çox gözəl bir nümunə nümayiş etdirdi.

Bu gün hamımızın iqtisadi cəhətdən inkişaf etmiş ölkə kimi tanıdığımız ABŞ və Avropanın bəzi dövlətlərində, o cümlədən MDB ölkələrində problemli kreditlərlə bağlı məsələ tam həll edilməyib. Hətta demək olar ki, heç həll edilməyib. Məsələn, 2008-ci il ABŞ-da ipoteka böhranı qlobal böhrana çevrildikdən sonra bu ölkədə yüz minlərlə vətəndaşın ipoteka və ya kredit borcları yaranması nəticəsində ipoteka borcunu verə bilməyənlər mənzillərini itirdilər. Bəzi Avropa ölkələrində, o cümlədən Yunanıstanda məsələnin qeyri-dövlət vəsaiti hesabına həll olunması cəhdi hələ də nəticəsiz qalır. Bu gün həmin ölkədə problemli kreditlər ümumi kredit kütləsinin 44,8 faizini təşkil edir. Postsovet ölkələrdə də analoji hallar baş verib və problemli kreditlərlə bağlı məsələlər tam həllini tapmayıb.

**Zahid Rza,**
**"İki sahil"**

*Salome Zurabişvili:*

## Prezident kimi regionda ilk səfərimi dost Azərbaycana etdim



Gürcüstan Prezidenti kimi regionda ilk səfərimi dost Azərbaycana etdim. Azərbaycanda gürcülərin yaşadığı bölgədə oldum.

Bunu Gürcüstan Prezidenti Salome Zurabişvili martın 6-da parlamentdə, deputatlar qarşısında çıxışı zamanı söyləyib. Dövlət başçısı Azərbaycanda apardığı danışıqların nəticələrini yüksək qiymətləndirib. Bildirib ki, Bakıda keçirdiyi görüşlərdə çox mühüm məsələlər müzakirə olunub.

Xəzər dənizi və Qara dəniz arasında nəqliyyat dəhlizinin inkişafına toxunan dövlət başçısı deyib: "Bakıda keçirdiyim görüşlərdə bu nəqliyyat dəhlizinin inkişafı diqqət mərkəzində oldu. Biz bu dəhlizin genişləndirilməsində maraqlıyıq".

S.Zurabişvili məruzəsində dövlətin daxili və xarici siyasətinin ən aktual məsələləri, xarici səfərləri və keçirdiyi görüşlər barədə məlumat verib.

Parlamentdəki dinləmələrdə Baş nazir Mamuka Baxtadze və hökumət üzvləri iştirak edirlər.

Çıxışdan sonra prezident deputatların suallarını cavablandıracaq.

*Paolo Qrimoldini:*

## TAP təkcə iqtisadi deyil, həm də siyasi əlaqələrin inkişafını təmin edəcək



Energetika Nazirliyində ATƏT PA yanında İtaliya nümayəndə heyətinin sədri, İtaliya Deputatlar Palatasında Xarici Əlaqələr Komissiyasının sədr müavini Paolo Qrimoldininin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Energetika naziri Pərviz Şahbazov iki ölkə arasında çoxşaxəli əməkdaşlıq əlaqələrində enerji sektorunda əməkdaşlığın mühüm rolunu qeyd edib. Bildirib ki, indiyə kimi Azərbaycan neftinin əsas alıcılarından biri olan İtaliyaya Cənub Qaz Dəhlizi vasitəsilə həm də qaz ixrac ediləcək. TAP layihəsinin icra vəziyyətinin qənaətbəxş səviyyədə olduğu və bu kəmərin reallaşmasında İtaliya hökumətinin mövqeyi yüksək qiymətləndirilib.

Nazir deyib ki, TAP kəməri ilə İtaliyaya təkcə yeni mənbədən qaz daxil olmayacaq, həm də təbii qazın istehlakçılar üçün münasib qiyməti formalaşacaq, dekarbonizasiya hədəfinə töhfə veriləcək.

Paolo Qrimoldini TAP kəmərini hər iki ölkənin maraqlarına cavab verən layihə kimi qiymətləndirib. Onun sözlərinə görə, TAP təkcə iqtisadi deyil, həm də siyasi əlaqələrin inkişafını təmin edəcəkdir.

"İtaliya Azərbaycanda enerji və texnologiya sahələrinə investisiya yatırmaqda, bu istiqamətlərdə əməkdaşlığı inkişaf etdirməkdə maraqlıdır", - deyə o əlavə edib.

Söhbət zamanı İtaliya şirkətlərinin digər sahələrdə də fəaliyyətinə toxunulub, Hökumətlərarası Komissiya çərçivəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# KİV-ə maliyyə yardımı müsabiqəsinin şərtlərinə yeni əlavə edilib



**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açıq elan edərək bildirib ki, gündəliyə əsasən iclasda bir məsələnin - Fondun 2019-cu ilin II rübü üçün KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı elan etdiyi müsabiqənin şərtlərinə yeni əlavələrin edilməsi məsələsinin müzakirəsi nəzərdə tutulur.**

Müzakirəyə çıxarılan məsələ barədə geniş məlumat verən icraçı direktor Vüqar Səfərli bildirib ki, çap mediasının müasir dövrün tələblərinə uyğun olaraq müasirləşdirilməsi, cəmiyyətdəki nüfuz və mövqelərinin möhkəmləndirilməsi məqsədilə Fondun 31 yanvar 2019-cu il tarixli iclasında qəzetlərin tirajı və yayımı ilə bağlı şərtlərdə dəyişikliklər edilib. V.Səfərli qeyd edib ki, fevral ayından etibarən qüvvədə olan həmin dəyişikliklərə əsasən, 2019-cu ilin II rübü üzrə Fondun KİV-ə maliyyə yardımı müsabiqəsində son 3 ildə müntəzəm gündəlik nəşr olunan, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3 formatda), tirajı 5000 nüsxədən az olmayan, hər buraxılışından ən azı 2000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan ictimai-siyasi qəzetlər iştirak edə bilərlər. V.Səfərli xarici dillərdə nəşr olunan gündəlik və həftəlik ictimai-siyasi qəzetlər üçün tirajın minimum 3000, satış və abunənin isə minimum 1500 nüsxə müəyyənləşdirildiyini xatırladıb.

İcraçı direktor bildirib ki, fevral ayının yekunları ilə bağlı Fonda təqdim olunan hesabatlar 2019-cu ilin I rübündə layihələri maliyyələşdirilən xeyli sayda qəzetin tiraj və yayımla bağlı yeni şərtləri yerinə yetirmək imkanında olmadığını göstərib. Vüqar Səfərli bununla əlaqədar 2019-cu ilin II rübü üzrə KİV-ə maliyyə yardımı müsabiqəsinin elanının şərtlərinə yeni əlavənin edilməsi təklifinin müzakirəsinə obyektiv zərurətin yarandığını qeyd edib. İcraçı direktor bildirib ki, həmin əlavəyə əsasən, son üç ildə müntəzəm nəşr olunan, müsabiqə elan olunan günədək Fondun maliyyələşmə şərtlərini yerinə yetirən, səhifələrinin sayı 24-dən (A3 formatda), tirajı 5000 nüsxədən az olmayan, hər buraxılışından ən azı 2000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan həftəlik, o cümlədən mövcud şərtlərlə fəaliyyətini davam etdirə bilmədiyinə görə həftəlik nəşr olunacaq gündəlik ictimai-siyasi qəzetlərə də müəyyən tələblər çərçivəsində maliyyə yardımının ayrılması təklif olunur. İcraçı direktor, həmçinin vurğulayıb ki, 2019-cu il aprelin 1-dən bu formatda çıxan qəzetlərin yalnız mətbəə xərcləri (kağız və çap xərcləri) Fond tərəfindən ödəniləcək. Aprel-may ayının yekun hesabatına əsasən qeyd olunan şərtlərə əməl etməyən qəzetlərin mətbəə xərclərinin ödənişi dayandırılacaq.

Sonra Müşahidə Şurasının üzvləri müsabiqə elanına təklif olunan əlavə ilə bağlı fikirlərini bildiriblər. Müşahidə Şurasının sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Bəhruz Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov və Rasim Həsənov təklif olunan əlavəni Fondun yayım və tirajla bağlı müəyyənləşdirdiyi yeni tələbləri yerinə yetirmək imkanında olmayan gündəlik və həftəlik qəzetlərə növbəti şans və humanist yanaşma kimi dəyərləndirərək, bu addımın həmin nəşrlərdə çalışan KİV əməkdaşlarının da mənafeyinə uyğun olduğunu, obyektiv reallığı əks etdirdiyini bildiriblər.

Sonda təklif səsə qoyularaq yekdilliklə qəbul edilib.

# Müstəqilliyimizin bələdçisi

**Dünən Binəqədi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Binəqədi rayon təşkilatı və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkilatçılığı ilə YAP Binəqədi rayon təşkilatının yaradılmasının 26-cı ildönümü və 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilib.**



YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov tədbir iştirakçılarını hər iki əlamətdar gün münasibətilə təbrik edib. R.Göyüşov YAP-ın Azərbaycanın siyasi həyatında əvəzsiz rolundan danışaraq, partiyanın təkcə ölkəmizdə deyil, Qafqazda, hətta bütün dünyada yüksək nüfuza malik olduğunu qeyd edib. Bildirdi ki, partiya sıralarının gündən-günə artması, sosial bazasının daha da möhkəmlənməsi Heydər Əliyev ideyalarına etimadın, dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin siyasətinə dəstəyin bariz nümunəsidir.

Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov Azərbaycan tarixində, elm və mədəniyyətində qadınlarımızın özünəməxsus yerindən söhbət açıb. Yeni Azərbaycan Partiyasının yarandığı tarixi dövrdə də Azərbaycan qadınının siyasi proseslərdə yaxından iştirak etdiyini bildirib.

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova partiyanın yarandığı gündən dövlətə, xalqa xidməti fəaliyyətinin əsas istiqaməti kimi qəbul etdiyini vurğulayıb. F.Hüseynova tarixi müstəqil Azərbaycanın tarixi ilə üst-üstə düşən Yeni Azərbaycan Partiyasının ölkəmizin keçdiyi inkişaf yolunun bələdçisi, uğurların təminatçısı olduğunu bildirib. Natiq çıxışının davamında bu gün Prezident İlham Əliyev tərəfindən qadınlara böyük önəm verildiyini, onların dövlətin müxtəlif təqəbələrində önə çəkildiyini diqqətə çatdırdı.

"Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev YAP-ın Azərbaycanın siyasi həyatındakı əhəmiyyətli yerindən və rolundan bəhs edib. Partiyanın yaranması və uğurlu siyasi fəaliyyəti ilə Azərbaycanı düşdüyü çətin vəziyyətdən xilas etdiyini, xalqımızı nicat yoluna çıxardığını vurğulayıb.

Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə Azərbaycan qadınlarının ölkə tarixinin bütün dövrlərində xalqın taleyüklü məsələlərinin həll edilməsinə öz töhfələrini vermələrindən bəhs edərək ölkənin siyasi mühitində fəallıq göstərən bütün Azərbaycan xanımlarını təbrik edib.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyətinin Azərbaycan qadınlarının dünyada obrazı kimi çıxış etdiyini bildirib. Qeyd edib ki, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın ictimai, siyasi, mədəni sahələrdə çoxsaylı təşəbbüslərin müəllifi kimi önə çıxması



Azərbaycan qadınının inkişafı üçün yeni üfüqlər açır: "Müstəqilliyin əvvəllərində ölkəmizdə bütün sahələrdə tənəzzülün yaşandığı dövrdə Yeni Azərbaycan Partiyası Azərbaycanın inkişafında, dövlətin güclənməsində, xalqımızın firavanlığına qovuşmasında misilsiz xidmətlər göstərib. Sözsüz ki, bütün bunlar partiyanın qurucusu, ümummilli lider Heydər Əliyevin uğurlu strategiyasının məntiqi nəticəsi idi. Hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində sürətlə inkişaf edən Azərbaycan mühüm nailiyyətlər qazanır və bundan sonra da qazanacaqdır".

Sonra rayonun ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə fərqlənən bir qrup qadın Fəxri fərman və hədiyyələrlə təltif olunublar. Tədbir qadınlar üçün təşkil olunan bədii hissə ilə davam etdirilib.

**Taleh Bağırov,**
***"İki sahil"***

# SOSİAL PROBLEMLƏR ÖZ HƏLLİNİ TAPIR



**Milli Məclisin deputatı Kamaləddin Qafarov ölkə Prezidenti İlham Əliyevin bu günlərdə imzaladığı, cəmiyyətdə çox böyük məmnunluq və minnətdarlıq ovqatı yaratmış “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanını 2019-cu ilin inqilabi qanunvericilik aktı kimi dəyərləndirib.**

Deputat bu Fərmanı əhalinin bütün sosial təbəqələrinin ürəyindən xəbər verən xoş bir müjdə və xalqın sosial problemlərinin həllinə, həyat səviyyəsinin yüksəldilməsinə yönəlmiş tarixi bir islahat hesab edir. Bu inqilabi addımın mahiyyəti ondan ibarətdir ki, 10 min dollara qədər kredit götürən fiziki şəxslərin borclarında 2015-ci ildə iki dəfə baş vermiş devalvasiyadan sonra yaranmış fərq dövlət büdcəsi hesabına ödəniləcək. Fiziki şəxslərə ödəniləcək vəsaitin ümumi məbləği 5000 ABŞ dolları ekvivalentində olacaq.

K.Qafarov deyib ki, Mərkəzi Bankın məlumatına görə, ölkədə problemli kreditlərin həcmi 1,5 milyard manatdan çoxdur. Prezidentimizin imzaladığı Fərmanın ikinci hissəsi 360 gündən çox gecikmədə olan kreditlərin restrukziyası ilə bağlıdır və bu hissəyə 400 mindən çox adam aiddir. Çünki 10 min dollara qədər və gecikmədə bir ildən artıq olan kreditlər ümumi kredit portfelinin böyük bir hissəsini təşkil edir. Fərmanın bu hissəsinin tələblərinə görə, əvvəla, kredit gecikəndən sonra tətbiq olunmuş bütün dəbbə pulu, sanksiyalar, cərimələr, faizlər dərhal silinəcək. İkincisi, məhkəmələrdə olan işlər geri qaytarılacaq. Bu halda söhbət təxminən 311 min işdən gedir. Eyni zamanda, icrada olan işlər də dayandırılacaqdır. Beləliklə, bir Fərmanla 800 min nəfərin problemi həll edilmiş oldu.

Bu Fərmanda diqqəti çox mühüm bir məqama yönəldən K.Qafarov vurğulayıb ki, illərdir ki, dollar krediti üzrə öhdəliyi zaminin ödəməsi faktına da aydınlıq gətirilmişdir. Məsələn, konkret şəxsin 10 min dollar kredit borcu olub, amma kredit götürən borcu ödəməkdən imtina edib və məhkəmə qərarı ilə borc, ona zamin durmuş şəxsin əmək haqqından tutulub. İndi həmin zamin durmuş şəxs və ya şəxslər fərdi qaydada müraciət edərək vəsaitini geri ala biləcək.

Kamaləddin Qafarovun fikrincə, sadalanan bütün bu məsələlər - ölkə iqtidarının xalqın həyat səviyyəsinin dayanıqlı şəkildə yüksəldilməsi, sosial problemlərin dinamik həlli strategiyası Azərbaycan üzrə üçüncü ümumi islahatlar paketinin operativ şəkildə reallaşacağı inamını doğurur.

# Şikayətlər üzrə Komissiyanın iclası




**Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Toplantını açan komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib.**

Milli Məclisin deputatı Elmira Axundovanın “criminal.az” saytına qarşı şikayətini araşdıran Komissiya üzvləri bildiriblər ki, Mətbuat Şurası KİV-də yayımlanmış materiallar üzrə şikayətləri, eyni məsələnin məhkəmə müstəvisinə çıxmasına qədər olan mərhələdə qəbul edir. Hazırda şikayət doğuran məsələ məhkəmə araşdırması mərhələsində olduğu üçün baxılmamış saxlanılır.

İsmayıllı rayon sakini Ürbabə Mahmudovanın “anews.az” xəbər portalına qarşı şikayətini araşdıran Komissiya üzvləri müəyyən ediblər ki, sayt əməkdaşları şikayət doğuran materialı hazırlayarkən, geniş araşdırma aparıb, tənqidi ruhlu məqaləni sənədlərlə isbatlamağa çalışıblar. Bununla yanaşı, materialda adları epizodik olaraq keçən şəxslər də var ki, onlar əsas hədəf, tənqid obyekti deyillər. Məqalədən şikayət verən Ürbabə Mahmudova da orada adı epizodik keçən şəxslərdən biridir. Komissiya üzvləri yaranmış anlaşmazlığın aradan qaldırılması üçün tövsiyə ediblər ki, xəbər portalı Mahmudovaya izahedici fikirlərini yayımlamaq üçün şərait yaratsın.

Bakı şəhəri Suraxanı rayonu 275 saylı orta məktəbin bir qrup əməkdaşının “deryaz.az” saytına qarşı şikayətini araşdırarkən müəyyən edilib ki, xəbər saytı şikayət doğuran materialı konkret müraciətlər əsasında hazırlayıb. Eyni zamanda, Peşə Davranış Qaydalarının balans prinsipini qorumağa çalışıb, qarşı tərəfin də mövqeyini öyrənib. Şikayətçilərə və sayt təmsilçilərinə tövsiyə olunub ki, dərc olunmuş materialdan kənar mübahisələrini hüquq mühafizə orqanlarına müraciət ünvanlayaraq aydınlaşdırsınlar.

Masallı Rayon Təhsil Şöbəsinin müdiri Tariyel Əkbərovun “tehsil-press.az” saytına qarşı şikayəti saytın təkzib verməsi səbəbindən gündəlikdən çıxarılıb.

İclasda “Best-beef” kolbasa sexinin sahibkarı Malik Tahirovun “heqiqet.az” saytına qarşı şikayəti də müzakirə edilib. Müəyyən olunub ki, şikayət doğuran materialda AJPDQ-nin prinsipləri pozulub. Sayt əməkdaşları yol verdikləri qüsurlara haqq qazandıracaq ifadələr təqdim etməyiblər. Məsələ geniş araşdırılmaq üçün MŞ-nin “Reket jurnaistika”ya qarşı mübarizə Komissiyasına yönləndirilib.

AMEA-nın elmi işçilərinin “qaynarinfo.az” saytına qarşı şikayətini araşdıran Komissiya üzvləri müəyyən ediblər ki, xəbər saytı şikayət doğuran materialı konkret müraciətlər əsasında hazırlayıb. Həmçinin Peşə Davranış Qaydalarının balans prinsipini qorumağa çalışıb, qarşı tərəfin mövqeyini öyrənib. Həmçinin şikayətçilərin narahatlığını nəzərə alaraq, təkzib xarakterli materiallar da yayımlayıb. Şikayətçilər isə bildiriblər ki, təkzib materialı yayılarkən, bəzi bəndlər ixtisar edilib, məzmuna xələl gəlib. Komissiya sayta tövsiyə edib ki, təqdim edilmiş təkzib materialını qarşı tərəflə razılaşdırılmış formada yenidən yayımlasın.

# Fəal qadınlar təltif edilib





Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə bayram konserti təşkil olunub. Tədbir Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatı və Mahnı Teatrının birgə təşkilatçılığı ilə reallaşıb.

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev müasir dövrdə Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında fəal rol oynaması barədə geniş danışıb. Qeyd edib ki, ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan qadınlar cənab Prezident İlham Əliyevin uğurlu siyasəti ətrafında sıx birləşiblər. Azərbaycan qadınının ölkəmizi beynəlxalq müstəvidə layiqincə təmsil etdiyini deyən natiq söyləyib ki, bu gün qadınlarımız dövlət qurumlarında da lazımi səviyyədə təmsil olunurlar.

Vurğulanıb ki, Səbail rayonunda yaşayan xanımlar öz səmərəli ictimai, sosial fəaliyyətləri ilə daim seçiliblər. Xanımların bütün uğurlarının və fəaliyyətlərinin hər zaman dəstəkləndiyini qeyd edən Ş.Hacıyev onları 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edib.

Sonra rayonun ictimai-siyasi həyatında xüsusi fəallığı ilə seçilən bir qrup qadına Fəxri fərmanlar və hədiyyələr təqdim olunub.

Tədbir konsert proqramı ilə davam etdirilib.

**Cavid Əkbərov,**
***“İki sahil”***

# DAŞIYICI QAZ KƏMƏRLƏRİ YENİDƏN QURULUR



Bakı şəhərinin, həmçinin şəhərətrafı qəsəbələrin daşıyıcı və paylayıcı qaz kəmərlərinin yenidən qurulması, kəmərlər üzərində quraşdırılmış avadanlıqların yeniləri ilə əvəz edilməsi, eləcə də hər bir istehlakçının mənzilinə müasir standartlara cavab verən yeni qaz sayğaclarının quraşdırılması istiqamətində işlərin icrası davam etdirilir.

Bu işlər Bakı şəhəri Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində də davam etməkdədir. Qəsəbədə yaradılan şərait nəticəsində yeni çoxmərtəbəli binaların və fərdi yaşayış evlərinin sayı durmadan artmaqda davam edir ki, bu da istehlakçıları təbii qazla təmin edən qaz kəmərlərinə normadan artıq qaz verilməsi zərurəti yaradır. Abonentlərin artan tələbatını nəzərə alaraq SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyi (İB) tərəfindən qəsəbənin qaz təchizatı sisteminin təkmilləşdirilməsi üçün layihə tərtib edilmiş və həmin layihəyə uyğun olaraq, Qaraçuxur qəsəbəsində “Qaraçuxur” qazpaylayıcı stansiyasından başlayaraq 400 mm-lik polietilen boru ilə yeraltı daşıyıcı qaz kəmərinin çəkilişinə başlanılmışdır.

Uzunluğu 1400 metr olacaq qaz kəməri Etibar Bəkirov, Yusif Eyvazov, Cəlal Qurbanov və Əhməd Mehbalıyev küçələrindən keçərək “1941-45” adlanan parkın sonunda mövcud şəbəkəyə birləşdiriləcəkdir. Qeyd edək ki, bu kəmər həmin ərazidə istismarda olan və korroziyaya uğramış metal boru ilə çəkilmiş yeraltı qaz kəmərini əvəz edəcək. Hazırda həmin kəmərin 350 metrlik hissəsində işlər başa çatdırılmış, qalan hissənin çəkilməsi üçün isə torpağın qazılması və daşınması davam etdirilir. Onu da bildiririk ki, yeni qaz kəmərinin çəkilişi ilə əlaqədar qeyd olunan ərazinin qaz təchizatında heç bir məhdudiyyət yoxdur. Aparılan işlərin qısa zaman ərzində başa çatdırılması nəzərdə tutulub. Görülən işlər nəticəsində Qaraçuxur və Yeni Günəşli qəsəbələrində ümumilikdə 15000-ə yaxın abonentin fasiləsiz, keyfiyyətli və dayanıqlı təbii qazla təmin olunmasına zəmin yaranacaq.

# Bakı Ali Neft Məktəbi və “Asan kadr” 2-ci Karyera sərgisi keçirəcəklər

Bakı Ali Neft Məktəbi və ASAN Könüllülük Məktəbinin “ASAN kadr” karyera mərkəzi “Coca-cola” şirkətinin sponsurluğu ilə gənclərin məşğulluğunu artırmaq üçün 2-ci Karyera sərgisini keçirəcəklər.

Karyera sərgisi bütün vətəndaşlar üçün açıq elan olunacaq. Sərgi vətəndaşlara məşğulluq, iş, təcrübə imkanları təklif edəcək, habelə müxtəlif şirkətlərin insan resursları üzrə mütəxəssisləri ilə peşəkar ünsiyyət qurmağa şərait yaradacaq.

2019-cu il 12 mart tarixində Bakı Ali Neft Məktəbinin kampusunda saat 10:00-dan 13:00-a kimi davam edəcək sərgidə müxtəlif yerli və xarici müəssisələrin nümayəndələri iştirak edəcəklər.

Sərginin əsas məqsədi savadlı, bacarıqlı, təcrübəli və iş potensialı ilə fərqlənən gənclərin dövlət və özəl qurumlarda işlə təmin olunmalarına dəstək olmaq və müəssisələrin mövcud iş vakansiyaları haqqında məlumat vermələri üçün şərait yaratmaqdır.

Qeyd edək ki, BANM və ASAN Könüllülük Məktəbi gənc mütəxəssislərin işlə təmin olunması məsələrinə hər zaman xüsusi diqqət yetirən müəssisələr sırasındadır. Xatırladaq ki, BANM-in ötənilki məzunlarının 100%-i artıq işlə təmin olunub, ASAN Könüllülük Məktəbindən isə bu günə kimi 1100-ə yaxın “ASAN kadr” işlə təmin edilib.

2018-ci ildə BANM və




“ASAN kadr” karyera mərkəzinin birgə keçirdiyi 1-ci Karyera sərgisində isə 53 müəssisə təmsil olunub və 1500-dən çox iştirakçı olub.

# Mətbuat Şurası Ədliyyə Nazirliyi ilə birgə layihəyə start verdi

## LAYİHƏ ÇƏRÇİVƏSİNDƏ İLK TOPLANTI KEÇİRİLİB





**Ötən gün Ədliyyə Nazirliyi ilə Azərbaycan Mətbuat Şurası ədliyyə və məhkəmə fəaliyyəti barədə ictimaiyyətin daha geniş məlumatlandırılması və əhalinin hüquqi biliklərinin artırılması məqsədi daşıyan birgə layihəyə start veriblər. Layihə nazirliyin ayrı-ayrı fəaliyyət istiqamətləri üzrə silsilə tədbirlərin, mətbuat konfranslarının və brifinqlər keçirilməsini nəzərdə tutur.**

Martın 6-da keçirilmiş ilk brifinqdə ölkənin tanınan, ictimai rəyə təsir göstərən KİV-lərinin 40-dan çox əməkdaşı iştirak edib. Toplantı Ədliyyə Nazirliyinin icra, probasiya, istintaq və azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzaların icrası sahəsində fəaliyyətinə və yeniliklərə həsr olunub.

Azərbaycan Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli toplantıda çıxış edərək bildirib ki, təmsil olunduğu qurum indiyədək müxtəlif dövlət orqanları ilə birgə jurnalistlərin ayrı-ayrı sahələr üzrə biliklərinin artırılması istiqamətində tədbirlər həyata keçirib. Bu tədbirlər həm jurnalistlərin praktik biliklərinin artırılmasını, həm də ixtisaslaşmalarının dərinləşməsini təmin etmək məqsədi daşıyır. Ədliyyə Nazirliyi ilə birgə təşəbbüsün də bu baxımdan əhəmiyyətli olacağına əminliyini vurğulayan M.Ələsgərli onu da bildirib ki, Şuranın Ədliyyə Nazirliyi ilə layihəsi özünün əhatəliliyi ilə diqqət çəkir. Layihə çərçivəsində nəzərdə tutulan fəaliyyətin getçəkləşdirilməsi imkan verəcək ki, jurnalistlər ümumən hüquqi biliklərini dərinləşdirsinlər. Çünki ədliyyə hüququn bir çox istiqamətlərini özündə birləşdirən kifayət qədər böyük sistemdir. Həm də bu sistem əhali qruplarını əhatə etməsinin genişliyi ilə də diqqət çəkir.

Toplantıda çıxış edənlərdən MŞ İdarə Heyətinin üzvləri - Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə Ədliyyə Nazirliyi ilə Mətbuat Şurasının birgə əməkdaşlığının faydalı nəticələr verəcəyini əsaslandırıblar. Onlar bildiriblər ki, belə tədbirlər ümumən dövlət qurumları ilə medianın əməkdaşlığının müasir forma və üsullarının tətbiqinə şərait yaradılmasını, mövcud istiqamətdəki problem və anlaşılmazlıqların tez bir zamanda aradan qaldırılması üçün anlaşma mühitinin daha da dərinləşməsini təmin edir.

Brifinqdə Ədliyyə Nazirliyinin İcra Baş İdarəsinin rəisi Nurəddin Mustafayev, Probasiya xidmətinin rəisi Akşin Ziyadov, İstintaq idarəsinin rəisi Zakir Qafarov, Cəzaların icrasına nəzarət üzrə müfəttişliyin rəisi Malik Ələkbərov çıxış edərək nazirliyin mühüm fəaliyyət istiqamətləri olan icra və probasiya xidmətlərinin istintaq və cəzaların icrası sahəsində fəaliyyətindən, bu qurumların gördüyü işlərdən danışıblar.

Brifinq çərçivəsində QHT və KİV nümayəndələri tərəfindən çıxışlar edilib, sual-cavab sessiyası keçirilərək, tədbir iştirakçıları arasında fikir mübadiləsi aparılıb.

Sonda KİV nümayəndələri Probasiya xidmətinin Elektron monitorinq mərkəzinin fasiləsiz fəaliyyəti, elektron qolbağın imkanları və tətbiqi xüsusiyyətləri ilə əyani tanış olublar.

# Təhsil Nazirliyi, "Bakcell" və "AzEduNet" arasında əməkdaşlıq protokolu imzalanıb

**Martın 5-də Təhsil Nazirliyi, "Bakcell" və "AzEduNet" şirkətləri arasında əməkdaşlıq haqqında protokolun imzalanması mərasimi keçirilib. Əməkdaşlıq protokolunu təhsil nazirinin müavini İdris İsayev, "Bakcell" şirkətinin baş icraçı direktoru Nikolai Beckers və "AzEduNet" şirkətinin direktoru Natiq Yəhyayev imzalayıb.**




Protokolun imzalanmasında məqsəd ucqar kəndlərdə yerləşən, şagird sayı 60-a qədər olan 700-ə qədər ümumtəhsil müəssisəsində Azərbaycan Təhsil Şəbəkəsi vasitəsilə internet və şəbəkə xidmətlərinə çıxışın təmin edilməsidir. Əməkdaşlıq çərçivəsində hər ümumtəhsil müəssisəsi "Bakcell" şirkəti tərəfindən təmənnasız olaraq 3 il müddətində inzibati-idarəetmə məqsədləri üçün aylıq internet trafiki və data kart, Azərbaycan Təhsil Şəbəkəsinin operatoru olan "AzEduNet" şirkəti tərəfindən isə şəbəkənin resurslarına limitsiz çıxış imkanı və texniki dəstək xidməti ilə təmin ediləcək. Tərəflər həmçinin "Bakcell" şirkətinin təhsil sahəsinə aid korporativ sosial məsuliyyət layihələri çərçivəsində birgə əməkdaşlıq səylərini daha da gücləndirəcəklər.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini İdris İsayev bildirib ki, müasir təhsil konsepsiyasının uğurlu icrasını şərtləndirən amillərdən biri təhsil müəssisələrinin şəbəkə infrastrukturu ilə təmin olunmasıdır. Bu baxımdan ölkədə ən böyük daxili təhsil şəbəkəsi olan və tədris prosesində innovativ mexanizmlərin tətbiqi üçün geniş imkanlar yaradan Azərbaycan Təhsil Şəbəkəsinin genişləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Nazir müavini qeyd edib ki, son illər şəbəkəyə qoşulmuş təhsil müəssisələrinin internet və intranet xidmətləri ilə təminatı, elektron təhsil resursları və idarəetmə sistemləri ilə təchiz edilməsi, tədris prosesində nəzarətin və qərarvermənin rəqəmsallaşdırılması istiqamətləri üzrə işlər həyata keçirilir.

"Bakcell" şirkətinin baş icraçı direktoru Nikolai Beckers bu əməkdaşlığın ölkədə təhsilin inkişafı və müasir texnologiyaların tətbiqi baxımından strateji xarakter daşıdığını vurğulayıb. Nikolai Beckers diqqətə çatdırıb ki, "Bakcell" özünün genişmiqyaslı korporativ sosial məsuliyyət fəaliyyəti çərçivəsində Azərbaycan gənclərinin təhsili və peşəkar inkişafını diqqətdə saxlayır və ölkədə təhsilin inkişaf etdirilməsinə töhfə verməyə çalışır. "Bakcell"in baş icraçı direktoru Təhsil Nazirliyi ilə birgə fəaliyyətin uğurlu olacağına əminliyini bildirib.

Tədbirdə "Bakcell" və "AzEduNet" şirkətləri tərəfindən ucqar kəndlərdə yerləşən ümumtəhsil müəssisələrinin təmənnasız şəbəkə imkanları ilə təminatı yüksək qiymətləndirilib.

## "Bakcell" ADA Universitetində keçirilmiş karyera yarmarkasına qatılıb



"Bakcell" şirkəti ADA Universitetinin təşkil etdiyi ənənəvi karyera yarmarkasında iştirak edib.

Tədbirin informasiya texnologiyaları və telekommunikasiya sənayesinə həsr olunmuş günündə universitetin tələbə və məzunlarına "Bakcell" şirkətində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib və potensial namizədlərlə müsahibələr keçirilib.

Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından olan "Bakcell" şirkəti gənclərin təhsilinin və karyerasının inkişafına dəstək göstərir.

Şirkət mütəmadi olaraq müxtəlif təhsil müəssisələri, müvafiq dövlət strukturları və təşkilatlar tərəfindən təşkil olunan karyera sərgilərində fəal iştirak edir. Müsahibədən uğurla keçən gənclər ölkənin ən böyük şirkətlərindən birində iş və ya təcrübə imkanı qazanır.

## "Pertamina" hasilatı yüksəldəcək



İndoneziyanın "Pertamina" dövlət enerji şirkəti cari il ərzində 300 yeni quyu qazmaqla gündəlik neft və qaz hasilatını orta hesabla 928 min barrel neft ekvivalentinə çatdırmaq niyyətindədir. Şirkət quyulardan 120-ni Şərqi Kalimantanda yeni kəşf edilmiş Mahakam blokunda qazacaq.

"Sürətli qazma əməliyyatlarına başlamaqdan başqa çarəmiz yoxdur",- deyə şirkətin kəşfiyyat və hasilat üzrə direktoru Dharmauan Samsu gün-gündən azalan hasilat göstəricilərini şərh edərkən bildirib.

Samsu belə hesab edir ki, təxminən 3,2 milyard barrel təsdiqlənmiş xam neft ehtiyatı olan ölkədə neft kəşfiyyatı çox əhəmiyyətlidir.

Xatırladaq ki, İndoneziya 2004-cü ildən neft idxal edən bir ölkə olub, lakin hazırda 1,5 milyon barrel neft istehlakı artıq yerli hasilat hesabına təmin olunur.

Qazma işlərindən əlavə, "Pertamina" mövcud quyularda su, karbon dioksid və digər kimyəvi maddələrin vurulması ilə hasilatı yüksəltməyi planlaşdırır.

## Efiopiya təbii qaz ixracına başlayacaq



Efiopiyanın Minerallar və Təbii Sərvətlər Nazirliyinin yaydığı məlumat doğru olarsa, təbii qaz ixracının ölkəyə xarici valyuta gətirməsi bir neçə il ərzində reallaşacaq.

Nazir Kuanq Tutlam bildirib ki, ixraca başlanıldıqdan sonrakı ilk ildə 1 milyard ABŞ dolları gəlir əldə edəcək.

Qeyd edək ki, ölkədə 2021-ci ildən təbii qaz ixracına başlanılması nəzərdə tutulur.

İxracdan əldə ediləcək yeddi il ərzində gəlirin 7 milyard dollara qədər artacağı proqnozlaşdırılır.

Hazırda ölkədə ixrac üçün elə hasilat yerindən başlayan yeni təbii qaz kəmərinin tikintisi də planlaşdırılır.

## Kənddə ağacəkmə aksiyası

Mart ayının ilk ağacəkmə kampaniyası Lerik rayonunun ucqar dağ kəndi olan Bradidə təbiətsevərlər üçün toy-bayrama döndü. Bradlilərin uşaqlı-böyüklü iştirak etdikləri bu tədbirdə birinci növbədə kənddəki mərkəzi yolun sağ və sol istiqamətində abadlıq, təmizlik işləri aparmaqla bərabər, 350-ə yaxın bəzək ağacları əkildi. Həm də yol boyu olan yeni tingləri suvarmaqdan ötrü arxlar çəkildi.

Bradi kəndində qoynunda qiymətli ağaclar, nadir bitkilər bəsləyən bir yer vardır. Təbiətin bu füsunkar guşəsinə "Vəcələcol" deyilir. Ekoloji mühitin saflığına xidmət edən yaşıllıq aksiyası çərçivəsində hər tərəfi yaşıllığa, gül-çiçəyə bürünən bu canlı aləmin sinəsinə daha 450 ədəd tut tingi əlavə olundu.

**Zəfər Orucoğlu,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## Ekologiya idarəsi

**qazma tullantılarının daşınması üçün konteynerlərin yükləmə və boşaldılması üçün polad burazları təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (21001-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 01.04.2019-cu il (ən geci müsabiqə təkliflərinin təqdim olunmasının son tarixindən 7 iş günü əvvəl), Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 08.04.2019-cu il, Bakı vaxtı ilə saat 09.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 59 manat və ya ekvivalent məbləğdə (ƏDV daxil) sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 08:00-dan 17:00-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Təklifin təminatı (nəzərdə tutulmur):***
Müsabiqə təklifi ilə birlikdə müsabiqənin əsas şərtlər toplusunda müəyyən olunmuş digər sənədlərlə yanaşı müsabiqə təklifinin qiymətinin __ faizi məbləğində müsabiqə təklifinin təminatı təqdim edilməlidir.

Təminatın növü və qüvvədə olma müddəti əsas şərtlər toplusunda göstəriləcəkdir.

***V. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 45 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1029______________________(indeks nömrəsi);
Bakı şəhəri____________________(yerləşdiyi şəhər);
Nərimanov rayonu______________ (yerləşdiyi inzibati rayon və qəsəbə);
H.Əliyev pr.121________________(yerləşdiyi küçə və ya prospekt);
"SOCAR TOWER" 12-ci mərtəbə___(yerləşdiyi bina, mərtəbə).
Əlaqələndirici şəxs:
Mirzəyev İsmayıl __________________ (soyadı və adı).
Marketinq və satınalmalar şöbəsinin rəisi _(struktur bölmənin və vəzifənin adı)
+(994) 012 521 08 17 ______(əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
+(994) 012 521 08 19 ______(əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
İsmayil.Mirzeyev@socar.az __əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 08.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 10:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Ekologiya İdarəsinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## QAZ EMALI ZAVODU

**Energetika qurğu və avadanlıqlarında sınaq-sazlama xidmət işlərinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (30002-TX-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət ;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 18.03.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər Azərbaycan dilində (tələb olunan əcnəbi dil) Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 3 (tələb olunan surətlərin sayı) surəti olmaqla 08.04.2019-cu il, Bakı vaxtı ilə saat 10.30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan dilində əldə etmək istəyənlər 118 manat və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 16:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ381BAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin il ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***
A Z1063 (indeks nömrəsi);
Bakı (yerləşdiyi şəhər);
Qaradağ rayon Lökbatan qəs. (yerləşdiyi inzibati rayon və qəsəbə);
Bakı-Salyan şosesi 22-ci km (yerləşdiyi küçə və ya prospekt);
______________________________(yerləşdiyi bina, mərtəbə).
**Əlaqələndirici şəxs:**
Xudiyev Möhübbət Əmir oğlu (soyadı və adı).
Əsaslı tikinti şöbəsi (struktur bölmənin və vəzifənin adı)
050-843-00-29 (30029) (əlaqələndirici şəxsin korporativ telefon nömrəsi)
30098 (əlaqələndirici şəxsin korporativ faks nömrəsi)
Mohubbat.xudiyev@socar.az (əlaqələndirici şəxsin korporativ elektron ünvanı)

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 08.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00 elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Qaz Emalı Zavodunun satınalmalar qrupu**

# Leyla Yunusun növbəti xəyanəti





**Sirr deyil ki, Azərbaycan son illər həyata keçirilən ciddi islahatlar nəticəsində davamlı inkişaf edərək regionun lider dövlətinə çevrilib. Ölkəmizin sürətli və hərtərəfli inkişafı, iştirakçısı olduğu iqtisadi layihələrdə söz sahibi qismində çıxış etməsi və digər hallar onun beynəlxalq münasibətlər sistemindəki yerini daha da möhkəmləndirir.**

Eyni zamanda, Azərbaycan dünyada demokratik ənənələrə hörmət göstərən, vətəndaş cəmiyyətinin inkişafını təmin edən, tolerantlıq nümunəsi sayılan ölkə kimi də beynəlxalq aləmdə qəbul olunur. Təəssüflər olsun ki, bunları qəbul edən qüvvələrlə yanaşı, uğurlarımızı inkar edən, qazanılan nailiyyətləri həzm edə bilməyən qüvvələr də yox deyil.

Məsələ burasındadır ki, erməni lobbisinin və ya ona yaxın dairələrin təsiri altında olan bu qüvvələr Azərbaycanın uğurlarına kölgə salmağa cəhd edərkən məhz "sapı özümüzdən olan baltalar"dan istifadə edirlər. Bu istifadənin ənənəvi köləsi isə özünü demokratiya carçısı kimi qələmə verən, əslində erməni lobbisinin sifarişlərini yerinə yetirən Leyla Yunusdur. Artıq heç kəs üçün təəccüblü olmasa da, bildirək ki, bu qadın növbəti dəfə xalqımıza düşmən mövqedə dayandığını sübut edib.

"On yaşları olmasına baxmayaraq, azərbaycanlı uşaqlar xristianların azərbaycanlıların düşməni olduğuna inandırılır və ermənilər qara geyimdə, imansız insanlar kimi onlara təqdim edilir". Bu sözləri Avropa Parlamentindəki "Armenophobia" tədbirində məhz Leyla Yunus səsləndirib. Təbii ki, L.Yunus çıxışı zamanı çox ifadə işlədib, lakin təkcə bu fakt onun kim olduğunu deməyə kifayət edir. Ermənipərəst və xalqımızın qatı düşməni olan Leyla Yunus bax belə "hüquq müdafiəçisidir" və o növbəti dəfə ermənilərə sevgisini nümayiş etdirdi.

AXCP sədri Əli Kərimlinin müdafiə etdiyi bir adamın əslində belə mövqedə olması başadüşüləndir. Sözsüz ki, nə Əli Kərimlinin, nə də Leyla Yunus kimilərinin yalanlarına heç kim inanmır. Çünki maraqlı xarici dairələrin sifarişi ilə Azərbaycana qarşı olan planların alətinə çevrilmiş bu azsaylı qrupun əsl məqsəd və siması xalqımıza çox yaxşı bəllidir. Azərbaycan xalqı kimin olduğunu, hansı məqsədlərə köklləndiyini çox yaxşı bilir. Ermənipərəst mərkəzlərin "kuklasına" çevrilən bəzi mühacirlər və daxildəki dağıdıcı ünsürlər də bilməlidirlər ki, bu yolla onlar heç bir niyyətlərinə çata bilməyəcəklər.

✍ **Taleh Bağırov,*"İki sahil"***

# Əli Kərimlidən "vətənpərvər" obrazı yaratmaq cəhdi

## YAXUD XARİCİ ANTİMİLLİ ÜNSÜRLƏRİN ƏLİNDƏ ALƏTƏ ÇEVRİLMƏK RƏZALƏTİ



**Ermənilərlə işbirliyi təsdiqlənən, keçmiş silahdaşlarının belə arxa çevirdiyi AXCP sədri Əli Kərimli kimilər müxalifət düşərgəsində nüfuzlarını itirmiş olduqlarının fərqində olmasalar da, hər halda bu reallıqdır. Rəqiblərin yenidən "dosta" çevrilərək, "Vətənə sədaqət" nümayiş etdirmələri diqqətdən kənarda qalmır.**

Xocalı faciəsinin 27-ci ildönümündə əli kərimlilərin, arif hacılıların milli maraqlardan, ümumi dərdimiz olan Dağlıq Qarabağ problemindən, Xocalı soyqırımından danışmaları ikrah doğurmaya bilməz. Xəyanətkar əməllərini belə saxta don geyinməklə ört-basdır etməyə çalışan bu ünsürlərə əkrəm naibovların "Daş yuxular"ını, rüstəm ibrahimbəyovların "Qafqaz üçlüyü"nü necə dəstəklədiklərini xatırlatmaq istərdik. Ermənilərə dəstək xarakteri daşıyan əkrəm, rüstəm sevgisinin məhsulu olan "Daş yuxular"ın, "Qafqaz üçlüyü"nün ssenarisinə diqqət yetirdikdə Xocalı şəhidləri üçün göstərdikləri "sevginin", "vətənpərvərliyin" gözdən pərdə asmaq xarakteri daşıdığı aydın dərk olunur. Azərbaycanlıların deyil, ermənilərin soyqırımına məruz qaldığını iddia edən bu ünsürlərin milli maraqlardan, ümummilli məsələlərdən danışmağa haqları varmı? Onlar unudurlar ki, şəxsi ambisiyalarının quluna çevrilmələri mənəviyyatlarının tamamilə itməsinə gətirib çıxarıb ki, bunu xarici dəstəkçilərindən milyonlar qazansalar da, bərpa edə bilməzlər.

Bəllidir ki, ölkə müxalifəti Azərbaycanın müstəqilliyini, ölkənin sürətli inkişafını istəməyən, dünya birliyində möhkəmlənən mövqeyinə qısqanclıqla yanaşan xarici havadarlarından aldıqları qrantlardan məhrum olmamaq üçün əks-təbliğatı gücləndirməklə ictimaiyyətə təsir imkanlarının tükənmədiyi görüntüsünü yaratmağa çalışırlar. Milli mənafe və təəssübdən kənar olan müxaliflərin ağalarının etimadını doğrultmaq üçün həqiqətlərimizi inkar yolunu tutmaları ictimaiyyətə bəlli olan olaylardandır.

Bu gün sürətlə inkişaf edən Azərbaycanda hansı sahəyə diqqət yetirsək yalnız yeniliyin, tərəqqinin şahidi olarıq. Siyasi korluğu, qərəzi özləri üçün fəaliyyət istiqaməti seçənlər təbii ki, reallıqla barışmayacaq. Siyasi qısqanclıq hissi, şəxsi ambisiyalarının quluna çevrilmələri, bir sözlə, qul psixologiyaları onları hər zaman ictimai qınaqla üz-üzə qoyub. Onların "aktual" problem kimi irəli sürdükləri məsələlər həllini tapıb. Daim xalqın həyat səviyyəsinin yüksəlməsi, sosial müdafiəsinin həlli naminə real islahatlar aparan Prezident İlham Əliyevin həmişə diqqət göstərdiyi və davamlı proses kimi önəm verdiyi sosial məsələləri "yeni tələb" kimi təqdim etdiklərini düşünən dağıdıcılar bu addımları ilə həm də müasir, yeni düşüncədən uzaq olduqlarını nümayiş etdirirlər. Bu ünsürlər unudurlar ki, indiki Azərbaycan nə 1990-cı illərin iqtisadi böhran, problemlər içərisində olan ölkəsidir, nə də insanlar bilərəkdən yaradılan gərgin siyasi mühitdə çaş-baş, xaos içərisində qalan, yolunu müəyyənləşdirməkdə çətinlik çəkən xalqdır. Bu gün Azərbaycan dünyanın ən qüdrətli ölkələri ilə eyni sırada yer alan siyasi, iqtisadi, demokratik inkişafı, diplomatik uğurları ilə diqqət çəkən ölkədir. Respublikamız ən çətin, möhtəşəm dialoqların gerçəkləşdiyi, dünya birliyini düşündürən problemlərin, beynəlxalq aləmi narahat edən hadisələrin müzakirəsi üçün seçilən sabit bir məkandır. Ali qanunlarla idarə olunan, insanların azad, sərbəst, əmin-amanlıq şəraitində yaşaması üçün ədalətin qorunub saxlanıldığı bir dövlətdir. Bunu sübut etmək üçün son illərdə ölkəmizlə əməkdaşlıqda maraqlı olan dövlət və tanınmış şirkətlərin artmaqda olan sayını nümunə göstərmək kifayətdir.

Əhalinin daha yaxşı yaşaması, firavan həyat sürməsi naminə iqtisadi uğurların sosial islahatların həllinə yönəldilməsi davamlı proses kimi beynəlxalq təşkilatların diqqətini cəlb edir. Maliyyə böhranından əziyyət çəkən inkişaf etmiş dövlətlərlə müqayisədə Azərbaycanın davamlı inkişafı daim yüksək dəyərləndirilir. Son illərdə iqtisadiyyatı 3 dəfədən çox artan, əhalisinin məşğulluq səviyyəsi 5 faiz olan, yoxsulluq həddi 5 faizə endirilən Azərbaycanın dövlət büdcəsinin, valyuta ehtiyatlarının artması da bu inkişafın uğurlu nəticəsidir. Bu uğurları AXC-Müsavat iqtidarı dövrünün qaranlıq məqamları ilə müqayisə etməklə bu gün özlərini xalqa canıyanan, vətənpərvər göstərməyə çalışanların nə qədər nankor olduqlarını görmək çətin deyil. Ən əsası odur ki, bu intibah, tərəqqi ölkə əhalisinin iştirakı və gözü qarşısında baş verir. Əli kərimlilərin fürsət düşən kimi, öz çirkin məqsədlərindən irəli gələn reallıqları inkar yolunu tutmaq cəhdləri bizləri bu ünsürlərə bu xatırlatmanı etmək məcburiyyətində qoyurlar- Şəxsi ambisiyalarının quluna çevrilib, ermənilərin və erməniperəst dairələrin maraqlarının oyunçuları olan əli kərimlilər illərdən bəri ictimai fikirdə qazandıqları xəyanətkar, düşmən dəyirmanına su tökən imicini üzərlərindən götürmək imkanında deyillər. Durğunluq bataqlığında çabalayan bu ünsürlər əsası olmayan, yersiz istəklərini ölkəmizin davamlı inkişafına nəzər salaraq tarazlasalar daha yaxşı olar. Bir əsas amili də unutmasınlar ki, vətənpərvərlik insanın daxili duyğularıdır. Bu duyğulardan məhrum olan insanlar mənəviyyatsız, simasızdırlar.

✍ **Yeganə Əliyeva, *"İki sahil"***

# Yolu ürəyi üstdə gedən şair



**Dünən Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda çağdaş ədəbiyyatımızın tanınmış nümayəndəsi, Azərbaycan Yazıçılar Birliyinin üzvü Kəmaləddin Qədimin "Yolu ürəyimin üstdə gedirəm" adlı növbəti şeirlər kitabının təqdimat mərasimi keçirilib.**

Tədbirin aparıcısı, tanınmış ədəbi tənqidçi Əsəd Cahangir kitabın müəllifinin yaradıcılığı ilə bağlı fikirlərini iştirakçılarla bölüşüb. O bildirib ki, qoşma, gəraylı kimi klassik şeir üslubundan daha çox və məharətlə istifadə edən Kəmaləddin Qədim, sözün həqiqi mənasında, təpədən dırnağa şairdir: "Elə onun sayca 11-ci kitabı olan "Yolu ürəyimin üstdə gedirəm" kitabındakı şeirlər də bunun bariz nümunəsidir".

O vurğulayıb ki, Kəmaləddin Qədimin şeirlərində təkcə doğulduğu kəndin deyil, bütövlükdə Azərbaycanın, eləcə də türk dünyasının ab-havası duyulur. Şairin hər bir şeiri dilinin sadəliyi, bədii hikməti, fəlsəfi düşüncəsinin dərinliyi ilə oxucunu özünə ram edir.

Kəmaləddin Qədimi poetik təbinə və istedadına güvənən şair kimi xarakterizə edən yazıçı Seyran Səxavət onun poeziyasını oxucunu özünə çəkə biləcək həqiqəti ilə seçilən bir poeziya kimi dəyərləndirib: "Bu da onun yaşadığımız həyata ayna tuta bilmək bacarığından irəli gəlir. Kəmaləddin Qədim həm də poetik təbinə və istedadına güvənən sənətkardır. Ona görə də onun qələmindən çıxan hər bir şeirin bədii tutumu, dəyəri vardır. Bir sözlə, Kəmaləddin soyadı Qədim olsa da, o, müasir şairlərimizdəndir. Özü də çox məhsuldar şairdir".

Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbani "Üz tutub Şuşaya sarı, ulayan yalquzaq mənəm" deyən şairin yaradıcılığında Qarabağ mövzusunun da özünəməxsus yer tutduğunu vurğulayıb. Bildirib ki, onun hərbi vətənpərvərlik ruhunda yazdığı şeirləri əsgər və zabitlər tərəfindən sevə-sevə oxunur.

Filologiya elmləri doktoru Ramiz Əsgər, yazıçı Səfər Alışarlı, şair Məmməd Tahir və başqaları çıxış edərək Kəmaləddin Qədimin insani keyfiyyətlərindən söz açmaqla yanaşı, onu yeni kitabının işıq üzü görməsi münasibətilə təbrik ediblər və yolu ürəyinin üstdə gedən şairə yaradıcılıq uğurları arzulayıblar.

Tədbirdə Kəmaləddin Qədim yaradıcılığına verilən dəyərə görə minnətdarlığını bildirməklə yanaşı, "bədii sirlərindən" də söz açıb: "Mən ancaq və ancaq ürəyimin hökmü ilə yazıram. Odur ki,

Ömür bitəbitdə, gün batabatda,
Can hansı qatdadı, ruh hansı qatda...
Başqa yol qalmayıb Allahın altda,
Yolu ürəyimin üstdə gedirəm..."

Qeyd edək ki, kitaba sevilən şairimiz Musa Yaqub "Darıxan misralar" adlı "Ön söz" yazıb.

✍ **Qvami Məhəbbətoğlu, *"İki sahil"***

## ERMƏNİSTANA DƏSTƏK:
# “köpəyə ehsan”, *yoxsa* dilənçi payı?



ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçak ölkəmizə səfəri çərçivəsində keçirdiyi görüşlərdə bu fikri dəfələrlə vurğuladı ki, təşkilat Azərbaycanla əməkdaşlığa böyük önəm verir. Azərbaycanın işğal olunmuş ərazilərinin dərhal və qeyd-şərtsiz boşaldılmasını tələb edən BMT-nin və digər təşkilatların qəbul etdikləri qətnamələrə baxmayaraq təcavüzkara ünvanlanan “dərhal tələb” 25 ildən artıqdır ki, həllini gözləyir. Dağlıq Qarabağın Azərbaycanın əzəli torpaqları olduğunu təsdiqləyən rəsmi qətnamələr qəbul olunub bəyanatlar verilsə də, Ermənistana sanksiyaların tətbiq olunmaması, təcavüzkara ciddi təsirlərin göstərilməməsi üzündən münaqişənin “sülh yolu ilə həlli” zamanını gözləməkdədir . ATƏT rəsmisi ilə görüşündə münaqişənin tezliklə sülh yolu ilə həllində maraqlı olan ölkəmizin beynəlxalq hüquq normalarına sadiqliyini bildirən Prezident İlham Əliyev onu da vurğuladı ki, substantiv danışıqların aparılmasında maraqlı olmayan Ermənistanın prosesi pozmaq cəhdləri işğal olunmuş ərazilərin boşaldılması prosesini ləngidir.

Miroslav Layçakın “ATƏT Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün bütün gücünü sərf etməlidir” sözləri təşkilata rəhbərlik edən bütün diplomatlar tərəfindən səsləndirilsə də görünür başqalarının himayəçiliyi və göstərişi ilə hələ də sülh danışıqlarında iştirakdan imtina edən Ermənistanın “gücü” işğalla bağlı qətnamə qəbul edən təşkilatların birgə qətiyyətindən üstündür. Yəni beynəlxalq səviyyədə Ermənistanla “bacarmaq gücü” hələ də formalaşmayıb.

Qalmaqalla müşahidə olunan Paşinyanın İran səfərindən sonra baş nazirin Brüsselə üz tutmaqda niyyəti Dağlıq Qarabağ ətrafında gedən proseslərə qərəzli rakursdan yanaşmaq, “Dağlıq Qarabağ Respublikası”nın danışıqlara cəlbi ilə bağlı uydurma, cəfəng baxışlarını Avropa Birliyinə sırımaq, separatçı rejimi tərəfi kimi tanıtdırmaq və bununla bağlı Avropa Birliyində ictimai rəyi işğala dəstək kimi formalaşdırmaqdır.

Məsələyə münasibət bildirən politoloqlar da vurğulayırlar ki, Paşinyanın bu niyyətləri baş tutan deyil. Çünki Avropa artıq danışıqların konseptual istiqamətlərini müəyyən edib. Orada qondarma “Dağlıq Qarabağ Respublikası”na heç bir yer yoxdur. Ona görə də Paşinyanın Avropa ictimai rəyini qazanmaq cəhdləri baş tutmayacaq.

Münaqişənin həllinə hesablanmayan Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanla danışıqların gündəlikdə olmaması ilə bağlı sərsəmləmələri, işğalçının bəhanə üçün “Qarabağ xalqını təmsil etmirəm” kimi sayıqlamalarının hansı məntiqə söykəndiyi də bəlli deyil. Çünki beynəlxalq ictimaiyyət, Ermənistan tərəfindən belə tanınmayan “Dağlıq Qarabağ Respublikası”nın “xalqının” olması barədə iddia irəli sürmək Paşinyanın diplomatiyadan, dünya siyasətindən məlumatının olmadığını göstərir.

Güclu, qüdrətli Azərbaycanla müqayisədə Ermənistanın, daşnak ideyalarını davam etdirən erməni lobbisinin Azərbaycan torpaqlarını işğal atında saxlamaq gücündə olmamasını hər kəs kimi, ermənilərin özləri də bilirlər. İşğalçı ölkənin milli təhlükəsizlik xidmətinin direktoru Artur Vanesyanın “ərazilərin bir qarışının belə qaytarılmasından söz gedə bilməz” kimi sərsəmləmələrinə Paşinyandan başqa heç kim inanmır.

Lələtəpə döyüşlərindən, Günnüt əməliyyatındakı məğlubiyyətindən dərs almayan Ermənistan ictimaiyyəti də bilir ki, ölkədaxili məsələləri həll etməkdə çətinlik çəkən Paşinyanın arada bir səsləndirdiyi “güclü ordu”, “güclü ölkə” ilə bağlı pafoslu sözləri sayıqlamadan başqa bir şey deyildir. İqtisadi, sosial problemlər məngənəsində çapalayan, əhalinin sürətlə davam edən köçünü, miqrasiyasının qarşısını ala bilməyən işğalçı ölkənin hərbi hissələrdə ordu saxlamaq üçün əsgəri, silah-sursatı belə yoxdur. Bu baxımdan “müharibə anonsunu” səsləndirən Paşinyan çox gözəl bilir ki, başlanacaq müharibə Ermənistanın birdəfəlik süqutu ola bilər. Ona görə də baş nazirin “müharibəyə hazırıq” iddiaları köpəyin quyruğunu tərpətməsi misalına bənzəyir. Köpəkdən soruşurlar ki, niyə hürürsən, deyir, qorxuduram. “Bəs quyruğunu niyə bulayırsan” sualına cavabı belə olur: “Özüm də qorxuram.”

Ermənistanı belə “mövqe bildirməyə cəsarətləndirən” havadarlarına arxayınlıq olsa da artıq ermənilərə olan bu dəstəklər də azalıb. Yeri gəlmişkən, Milli Məclisin deputatı, Azərbaycan Rus İcmasının sədri Mixail Zabelinin rusiyalı deputatların Bakıda keçirilən yürüşdə iştirakına görə Ermənistanın Rusiya Federasiyasındakı səfiri Vardan Toqoyanın “hiddətlənməsinə” cavab olan açıq məktubunu xatırlayaq.

İrəvanda faşist, nasist, cani Qaregin Njdeyə ucaldılan heykələ etirazını bildirən deputat məktubunda yazır: “Rusiyanın sayəsində Ermənistan dövlətinin və erməni xalqının sosial-iqtisadi vəziyyəti hələ “mövcudluğunu” davam etdirir və “o köpəyoğludur , amma bizim köpəyoğludur”, prinsipi əsas götürülməklə Ermənistana hər şeyi bağışlayırlar... Xoşbəxtlikdən, böyük Rusiyada nasist ideologiyasını əsas tutan Ermənistanın şovinist, millətçi siyasətinin nəyə gətirib çıxara biləcəyini anlayan siyasətçilər və ictimai xadimlər çoxdur və Rusiyanın “öz köpəyoğlusunun” hərəkətlərinə səbri tükənməz deyil.”

Bəli, hər satqınlığın, xəyanətin qiymətini zaman verir. Vaxt gələcək bütün dəstəklərindən məhrum olacaq Ermənistan da layiq olduğu cavabı alacaq. Vaxt gələcək, bir zamanlar Ermənistanın kriminal rejiminin cinayətlərinə, işğalçılıq, faşizm siyasətinə göz yumanlar da cənab İlham Əliyevin bu sözlərinin doğruluğunu təsdiqləyəcəklər: “Mən dəfələrlə bunu bildirmişəm, bir daha demək istəyirəm ki, Ermənistanı bu ağır böhranlı vəziyyətdən çıxarmaq üçün bir yol var, o da Azərbaycan ilə münasibətləri normallaşdırmaqdır. Biz buna hazırıq. Ancaq əlbəttə ki, buna nail olmaq üçün bir şərt var - Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çıxarılmalıdır.”

**Xuraman İsmayılqızı,**
***“İki sahil”***

# Sumqayıtda yeni ticarət mərkəzi açılıb

**Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov şəhərdəki 10-cu mikrorayon ərazisində fəaliyyətə başlayan ticarət mərkəzinin açılışında iştirak edib.**



Məlumat verilib ki, 4 mərtəbəli ticarət obyektinin ümumi sahəsi 10 min kvadratmetrə yaxındır. Yeni iş yerlərinin açılması baxımından da ticarət mərkəzinin fəaliyyətə başlaması mühüm əhəmiyyət kəsb edir. Belə ki, burada ilkin mərhələdə 200-ə yaxın şəhər sakini işlə təmin olunub. Zövq oxşayan müasir tərtibatlı ticarət mərkəzində bazarlıq üçün hərtərəfli imkanlar mövcuddur. Burada müştərilərə ən geniş çeşiddə müxtəlif növ məhsullar təqdim edilir.

Şəhər rəhbəri yeni istifadəyə verilmiş ticarət mərkəzi ilə tanışlıqdan sonra kollektivlə görüşüb.

Zakir Fərəcov son illər Sumqayıt şəhərində həyata keçirilən abadlıq-quruculuq işləri, reallaşdırılmış layihələrlə bağlı ticarət mərkəzinin kollektivinə ətraflı məlumat verib. Bildirib ki, ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, davamlı sosial-iqtisadi inkişafa və əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaq məqsədilə həyata keçirilən uğurlu iqtisadi siyasətin məntiqi nəticəsi olaraq Sumqayıt şəhərinin sosial-iqtisadi inkişafında əhəmiyyətli irəliləyişlər əldə edilib. Son 5 ildə şəhərdə ümumi daxili məhsul istehsalı 2,6, sənaye məhsulu istehsalı 2,9, investisiya qoyuluşu 3,5 dəfə artıb, 32819 yeni iş yeri yaradılıb. Əhaliyə göstərilən ticarət, iaşə və digər xidmətlərin səviyyəsinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb.

Vurğulanıb ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sürətli iqtisadi inkişafa nail olunub və bu proses uğurla davam edir. Sürətli inkişaf bütün sahələrdə, o cümlədən ən müasir ticarət infrastrukturunun yaradılmasında da özünü aydın göstərir.

Təsadüfi deyil ki, ölkə iqtisadiyyatında əldə olunmuş uğurlarda ticarət sektorunun da inkişafı və genişlənməsi vacib rol oynayır. Bu cür ticarət mərkəzlərinin yaradılması şəhər sakinlərinin rahatlığını təmin edir. Bununla yanaşı, bu müasir ticarət mərkəzinin istifadəyə verilməsi eyni zamanda, şəhərin iqtisadi inkişafına xidmət edir.

Sonda ticarət mərkəzinin kollektivi ilə xatirə şəkli çəkdirilib. Şəhər rəhbəri Ticarət Mərkəzinin önündə şəhər sakinləri ilə də görüşüb.

**Orxan Vahidoğlu,**
***“İki sahil”***

## *Əməkdar artist:*
# Diqqət və qayğı məsuliyyətimizi artırır



“Cənab Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü bütövlükdə milli mədəniyyətimizə qayğının bariz nümunəsi idi. Elə bu səbəbdən də həmin görüş böyük əks-səda doğurub. İndi hamı bu görüşdən danışır. Mənə belə gəlir ki, həmin görüş hələ çox müzakirə olunacaq”. **Bu fikirləri Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru, Əməkdar artist Şövqi Hüseynov mövzu ilə bağlı “İki sahil” qəzetinə açıqlamasında söylədi.**

Bildirdi ki, həmin görüşdə irəli sürülmüş təkliflər artıq reallaşmaqdadır: “Belə ki, dövlətimizin başçısı artıq “Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında”, “Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında”, həmçinin “Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına “akademik” statusu verilməsi haqqında” Sərəncamlar imzalayıb. Dövlətimizin başçısı görüşdə teatr işçilərinin əməkhaqlarının azlığı ilə bağlı qaldırılan məsələni də nəzarətə götürərək bununla bağlı təkliflər hazırlanmasına və əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılmasına dair tapşırıq da verib. Şübhəsiz, görüşdə qaldırılan digər məsələlərin həlli istiqamətində də müvafiq addımlar atılmaqdadır. Bu, bir daha təsdiqləyir ki, Azərbaycan mədəniyyətinin ölkəmizin ictimai-mədəni həyatında önəmli yeri var. Daha doğrusu, cəmiyyətimizdə milli və ümumbəşəri dəyərlərin təbliğində, vətənpərvərlik ruhunun, yüksək mənəvi keyfiyyətlərin aşılanmasında mədəniyyətimizin rolu əvəzolunmazdır. Bu mənada xalqımızın, milli dövlətçiliyimizin tərəqqisi üçün mədəniyyətin, incəsənətin də hərtərəfli və davamlı inkişafı çox vacibdir”.

Müsahibimiz vurğuladı ki, ümumiyyətlə, bu diqqət və qayğının təməlini Ulu Öndərin həyata keçirdiyi islahatlar təşkil edir: “1990-cı illərin əvvəllərində teatrda ilk addımlarımı atmağa başlamışam və ümummilli lider Heydər Əliyevin mənim çalışdığım teatr da daxil olmaqla bütün teatrlarımıza daim diqqət və qayğısının şahidi olmuşam. Milli və ümumbəşəri mədəniyyəti çox yüksək dəyərləndirən ulu öndər Heydər Əliyev mədəniyyətimizin inkişafı üçün hər zaman əzmkarlıq, fədakarlıq, təşəbbüs və yüksək təşkilatçılıq nümunəsi göstərirdi. Prezident İlham Əliyev də bizə öz diqqət və qayğısını əsirgəmir. Azərbaycan mədəniyyəti və incəsənətinin dünyaya inteqrasiya olunması istiqamətində yorulmadan çalışan, respublikamızı sivilizasiyalı ölkə kimi tanıdan Birinci vitse-prezident Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərini himayə etməsi isə dövlət başçısının bizə münasibətinə xüsusi çalarlar əlavə edir”.

Həmsöhbətimiz, həmçinin qeyd etdi ki, bütün bu diqqət və qayğı mədəniyyət sahəsində çalışanların üzərinə ciddi məsuliyyət qoyur: “Odur ki, indi hər bir sənət adamı öz işini günün tələbləri səviyyəsində qurmalı, daha yaxşı işləməli, dövlət müstəqilliyinin bərpasından sonra özünün yeni inkişaf mərhələsinə qədəm qoyan mədəniyyət və incəsənətimizə öz işi ilə yeni çalarlar əlavə etməli, bir sözlə, göstərilən qayğını, etimadı doğrultmalıdır”.

**Qvami Məhəbbətoğlu,**
***“İki sahil”***

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**Müxtəlif ölçülü polad borulara (1020x16,820x16,820x14,720x15mm) olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25045-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 02.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 09.04.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 590 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsinin yerinə yetirilməsi qrafik üzrə tələb olunacaq.

**Bank təminatı:**

İddiaçı 25000 (iyirmi beş min) AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta (ABŞ dolları və ya Avro) məbləğində müsabiqə təklifinin qüvvədə qalması üçün bank təminatı təqdim etməlidir.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**

Anar İsmayilov
Maddi-Texniki Təchizat və Marketinq şöbəsinin böyük mühəndisi
Tel: +994 12 521-07-67
Tel: +994 50 292 80 85
Tel: +994 55 234 84 85
Elektron ünvan: anar.k.ismayilov@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 09.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 12:00-da elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Neftqaztikinti" Tresti

**Qaynaq aparatlarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (25046-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi ; (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 60 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 02.04.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifləri bir əsli və bir surəti olmaqla 09.04.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 236 AZN (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

Satınalma müqaviləsini 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

**Bank təminatı:**

İddiaçı 8500 (səkkiz min beş yüz) AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta (ABŞ dolları və ya Avro) məbləğində müsabiqə təklifinin qüvvədə qalması üçün bank təminatı təqdim etməlidir.

Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 % məbləğində müəyyənləşdirilir.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ1018 (indeks), Xətai rayonu, 2922 məhəllə, Zığ yolu küçəsi 41C, "Neftqaztikinti" Trestinin inzibati binasının 3-cü mərtəbəsi, Bakı şəhəri, Azərbaycan Respublikası.

**Əlaqələndirici şəxs:**

Rövşən Feyzullayev
Maddi-Texniki Təchizat və Marketinq şöbəsinin mühəndisi
Tel: +994 50 842 52 52
Tel: +994 55 790 91 81
Elektron ünvan: rovshen.feyzullayev@socar.az

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 09.04.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:30-da, elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Neftqaztikinti" Trestinin Satınalmalar qrupu**

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

iki sahil

Son səhifə

www.ikisahil.az / www.ikisahil.tv



GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 45 (7300) / Cümə axşamı, 7 mart 2019-cu il

# Dünyanın ən böyük aeroportu nə vaxt istifadəyə veriləcək?



**Pekindəki sayca üçüncü, dünyanın isə ən böyük aeroportu olacaq "Dasin" beynəlxalq hava limanı sentyabrın sonunadək istifadəyə veriləcək.**

Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, bu barədə Çin Mülki Aviasiya Administrasiyasının sədri Fen Cenlin Pekində işə başlayan Çin Xalq Siyasi Məşvərət Şurasının illik iclası zamanı jurnalistlərə açıqlamasında deyib. Bildirib ki, hava limanında əsas tikinti-quraşdırma işləri başa çatıb. Hazırda binada interyerin tərtibatı, avadanlığın quraşdırılması və yoxlanışı həyata keçirilir. Bütün bu işlərin iyunun 30-dək başa çatdırılması planlaşdırılıb. Hava limanında sınaq uçuşları həyata keçirilib, uçuşların təhlükəsizliyi üzrə yoxlamalar aparılıb.

Qeyd edək ki, Pekinin cənub hissəsində, Xebey vilayətinin Lanfan şəhəri ilə kəsişmədə yerləşən "Dasin" hava limanının 2021-ci ilədək sərnişin ötürmə gücünün illik 45 milyona, 2025-ci ilədək isə 72 milyona, 2040-cı ildə isə 100 milyona çatması gözlənilir. Aeroportun əsas binasının dizayn layihəsi məşhur memar Zaha Hadidə məxsusdur. Ümumi sahəsi 1 milyon kvadratmetrə qədər genişləndiriləcək hava limanının ərazisində dünyada ilk dəfə sürətli dəmir yolu fəaliyyət göstərəcək. Aeroportun 4 uçuş-enmə zolağı ildə 620 min təyyarə qəbul edib, yola salacaq. Hava limanından həm daxili, həm də beynəlxalq uçuşlar həyata keçiriləcək.

Hazırda Pekində yalnız daxili uçuşların həyata keçirildiyi "Nanyuan" hava limanı və sərnişin ötürmə qabiliyyətinə görə ABŞ-ın Atlanta şəhərindəki Hartsfild-Cekson hava limanından sonra ikinci olan "Paytaxt" beynəlxalq aeroportu fəaliyyət göstərir.

# Martın 8-də hava pisləşəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi hava ilə bağlı xəbərdarlıq yayıb.

Milli Hidrometeorologiya Departamentindən Milli.Az-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında martın 7-si günün ikinci yarısından, martın 8-i axşamadək şimal-qərb küləyinin sürətinin 15-20 m/s olacağı, ayrı-ayrı yerlərdə arabir 23-27 m/s-dək güclənəcəyi gözlənilir. Temperatur ötən günlə müqayisədə 2-4 dərəcə aşağı enəcək.

Azərbaycanın rayonlarında martın 7-si axşama doğru, martın 8-də hava şəraitinin qeyri-sabit keçəcəyi, yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir.

Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyinin sürəti arabir 15-20 m/s olacaq, bəzi yerlərdə arabir 23-28 m/s-dək güclənəcək. Temperatur ötən günlə müqayisədə 3-5 dərəcə aşağı enəcək.

## ELAN:

*Şıxəliyev Emin Fuad oğluna məxsus 21 oktyabr 2016-cı il tarixdə verilmiş Bakı şəhəri, Xətai rayonu, X.Məmmədov küçəsi 2944A saylı məhəllədə yerləşən yaşayış binasındakı 113B saylı mənzil üzrə verilən alqı-satqı müqaviləsi və 22 oktyabr 2007-ci il tarixdə verilən 1837 nömrəli Maliyyə Arayışı itdiyi üçün etibarsız sayılır.*

# Messi üçün görünməmiş müqavilə

## ONA TOXUNMAQ OLMAZ



Argentina Futbol Federasiyası Mərakeşlə qarşılaşacaqları yoxlama oyunu üçün qarşı tərəflə maraqlı bir müqavilə imzalayıb.

Milli.Az xəbər verir ki, müqaviləyə əsasən mərakeşli futbolçular Messiyə qarşı çox diqqətli olacaq və ona sərt müdaxilələr etməyəcək. Bununla yanaşı oyundan sonra nə oyunçular, nə də azarkeşlər ulduz futbolçu ilə şəkil çəkdirə bilməyəcəklər. Hətta federasiya tələb edib ki, Argentina yığmasının hansı oteldə məskunlaşacağı da gizli qalacaq.

Bütün bunlarla razılaşan Mərakeş federasiyasının isə tək bir tələbi olub. O da Messinin ən azı 60 dəqiqə meydanda qalması.

Qeyd edək ki, qarşılaşma martın 26-da oynanacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın "Azəriqaz" İB-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın İqtisadiyyat və Uçot İdarəsinin rəis müavini Vaqif Mustafayevə, bacısı

**Xəzəngül xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi İdarənin Abşeron MQKS-nin rəis müavini Yaşar Hüseynova, qayını

**Bəyverdi Əliyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin "Neft Daşları" NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun direktoru Roman Nağıyevə, əmisi oğlu

**Nofəl Nağıyevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin "Neft Daşları" NQÇİ-nin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin rəis müavini İlqar Həmzəyevə, anası

**Şükufə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Qaz İxrac" İdarəsinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın İqtisadiyyat və Uçot İdarəsinin rəis müavini Vaqif Mustafayevə, bacısı

**Xəzəngül xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Neftqaztikinti" Trestinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın İqtisadiyyat və Uçot İdarəsinin rəis müavini Vaqif Mustafayevə, bacısı

**Xəzəngül xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Neftqaztikinti" Trestinin rəhbərliyi, Həmkarlar İttifaqı Komitəsi və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin N.Nərimanov adına NQÇİ-nin rəis müavini İlqar Həmzəyevə, anası

**Şükufə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

SOCAR-ın "Azneft" İB-nin Dalma Qurğularının Təmiri və Kirayəsi üzrə Eksperimental İstehsalat Müəssisəsinin direktoru Nazim Qafarov və əmək kollektivi SOCAR-ın "Azneft" İB-nin Ə.Əmirov adına NQÇİ-nin rəis müavini Rahib Abıyevə, anası

**Hökümə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ

Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab №AZ19AIIB38030019443700306107 Kod № 200071 VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 07.03.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8287
İndeks: 0151, Sifariş: 447

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.